www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19-20 noyabr 2016-cı il Şənbə № 257 (6578) Qiyməti 60 qəpik

**Xəbər**

## "Azəristiliktəchizat" dövlətin 76 milyonunu necə buxarlandırdı - şok faktlar

yazısı səh.3-də

## Amerika Azərbaycandan işğalçının xahişini edəcək?

# OBAMANIN ELÇİSİ İRƏVANDAN BAKIYA XÜSUSİ MESAJLA GƏLİR

Azərbaycan rəsmiləri ilə görüşlərdə Qarabağ, atəşkəs məsələsi də diqqət mərkəzində olacaq; rəsmi Bakı üçün əsl fürsətdir amerikalı diplomatdan soruşsun ki...



yazısı səh.5-də

## Elnur Aslanov işdən çıxarıldı, birdəfəlik xaricə köçür

Hələ avqust ayından Rabitə və Yüksək Texnologiyalar Nazirliyindəki işini atıb gedən E.Aslanovun ərizəsinin üstü yazıldı; indi həbsdə olan Vidadi Zeynalovun yaxın qohumunun kreslosu ona da düşmədi... yazısı səh.3-də

**Gündəm**

### Akif Çovdarovun bacılarından səs-küylü açıqlamalar - "yalandır, fitnə-fəsaddır"



Həbsdəki generalın ailə üzvləri danışdı; Qənirə Çovdarova: "Akifin təkcə mədəsi, öd kisəsi çıxarılmayıb, onun ürəyi də başqasınındı"

yazısı səh.7-də

### Ali Məhkəmə İlqar Məmmədovu həbsdə saxladı

yazısı səh.12-də

*Vüsalə Mahirqızı:*

### "O da olanda bilirlər ki, fövqəladə vəziyyətdir..."

yazısı səh. 8 və 9-da

### Banklar vətəndaşları necə aldadır - dolları alıb niyə satmırlar?

yazısı səh.13-də

### 1,5 milyon manat rüşvət alan nazir müavini niyə vəzifədə saxlanılır?

yazısı səh.4-də

### Büdcə müzakirəsi başlandı- gəlirlər kəskin azalıb

yazısı səh.2-də

### Qərbin İslam dünyasına qarşı "İŞİD kartı"

yazısı səh.5-də

### Koreya dili Azərbaycan, türk dilləri ilə qohumdurmu...

yazısı səh.13-də

### Deputatların maaş artımı təklifi niyə qıcıqla qarşılanır?

yazısı səh.6-da

### Gəncə Avtomobil Zavodu niyə özəlləşdirilir?

yazısı səh.4-də

### Kimsəsizlərin, atılmışların son ümidgahı - qocalar evindən reportaj

yazısı səh.15-də



Fərhad Qəribov

### Qumarda 270 min dollar uduzduğu deyilən sabiq deputatın hekayəsi

yazısı səh.6-da



Anar Mahmudov

### Eldar Mahmudovun oğlunun şirkətinin mənimsədiyi milyonlar - istintaq ifadəsi...

yazısı səh.10-da



*Nemət Pənahlı:*

### "Ənvər Əliyevin üstünə hücum çəkib dedim ki..."

yazısı səh.12-də

YENİ MÜSAVAT
N 257 (6578) 19 noyabr 2016



## Voleybol üzrə Avropa çempionatının Bakıda keçirilməsi üzrə Təşkilat Komitəsi yaradıldı

**Prezident İlham Əliyev voleybol üzrə qadınlar arasında Avropa çempionatının final mərhələsinin 2017-ci ildə Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında sərəncam imzalayıb.**

APA-nın məlumatına görə, 2017-ci ilin sentyabr-oktyabr aylarında Bakı şəhərində voleybol üzrə qadınlar arasında Avropa çempionatının final mərhələsinin keçirilməsi ilə bağlı Təşkilat Komitəsi yaradılıb.

Azərbaycan Respublikası baş nazirinin birinci müavini Yaqub Eyyubov Təşkilat Komitəsinin sədri təyin olunub.



## Büdcə müzakirəsi başlandı - gəlirlər kəskin azalıb

**Azərbaycan Demokratiya və Rifah Hərəkatı (ADR) "Artan israfçılıq və azalan büdcə: 2017-ci ilin büdcəsi nələr vəd edir",- mövzusunda ekspert müzakirəsi təşkil edib. Noyabrın 18-də keçirilən tədbirdə bir sıra iqtisadçılar, siyasətçilər və ziyalılar iştirak ediblər. Musavat.com xəbər verir ki, ilk olaraq ADR sədri Qubad İbadoğlu ölkənn dövlət büdcəsinin neft və post neft dövründə retrospekriv və perspektiv təhlili mövzusunda məruzə ilə çıxış edib.**

O bildirib ki, bu büdcəni dəyərləndirmək üçün həm də son on ildə dövlət büdcəsinə nəzər salmaq lazımdır:"Büdcənin gəlirləri 2008-ci il səviyyəsindən də aşağıdır. Ən böyük büdcəyə 2013-cü ildə nail olmuşuq. Ən böyük büdcə kəsirini də 2016-cı ildə gözləyirik. Büdcənin formalaşmasında Dövlət Neft Fondunun transfertlərinin böyük rolu olub. Azərbaycan iqtisadiyyatı neft faktoru üzərində qurulub. Son illərin dinamikasına nəzər salsaq, ən böyük ayırma 2012-ci ildə olub. Həmin ildən başlayaraq DNF tərəfindən büdcəyə ayırmalar azalıb. 2016-cı ildə 7 milyon 615 min manatlıq transfert gözləyirik. Bu da büdcənin 45,2 faizi deməkdir. Büdcə xərcləmələrində investisiya xərcləri gələn il də nəzərə alınmaqla, on ildə 33,9 milyard olub. Yəni büdcənin hər dörd manatından biri tikintiyə xərclənib. 2017-ci ilin büdcəsinin gəlir hssəsi 15,955 milyard manat, xərcləri 16,600 milyard manat proqnozlaşdırılıb. Büdcə gəlirlərinin strukturuna nəzər salsaq, 38 faizini DNF formalaşdıracaq, Gömrük Komitəsi 14, Vergilər Nazirliyi 45 faizini formalaşdıracaq".

**Onun sözlərinə görə, büdcədə son on ilin, 2006-2015-ci ilin büdcəsindən hər yüz manatdan 33 manat 70 tikinti, 8 manat 91 qəpiyi təhsilə, 8 manat 39 qəpiyi sosial müdafiə və təminata, 7 manat 63 qəpiyi dövlət idarəetmə aparatını xərclənməsinə, 3 manat 55 qəpiyi səhiyyəyə xərclənib:** "2017-ci ilin büdcə gəlirlərinin hər yüz manatından 49 manat 20 qəpiyi neft sektorundan, 50 manat 80 qəpiyi qeyri-neft sektorundan ibarət olacaq. Qeyri-neft sektorunu da yüz manat olaraq götürsək, 67 manat 30 qəpiyi Vergilər Nazirliyindən, 27 manat 20 qəpiyi Dövlət Gömrük Komitəsindən, 5 manat 50 qəpiyi isə Dövlət Əmlak Komitəsindən gələcək. 2017-ci ilin büdcə gəlirlərinin hər yüz manatından 25 manatı ƏDV-dən, 12,96 manatı mənfəət vergisindən, 7,3 manatı fiziki şəxslərdən alınan gəlir vergisindən ibarət olacaq. 2017-ci ilin büdcə xərclərinin strukturu isə daha çox müdafiə xərclərindən ibarət olacaq. Yəni 6,5 faiz idarəetmə, 10,4 faiz təhsil, 0,7 faiz elm, 4,5 faiz səhiyyə, 15,8 faiz müdafiə, 12,4 faiz sosial təminat və müdafiə, 15,1 faiz tikinti, 1,7 faiz mədəniyyət, 2,8 faiz kənf təsərrüfatı, 0,09 ekologiya, 7,3 faiz hüquq mühafizə orqanları, 9,8 faiz isə dövlət borcuna və öhdəliklərinə xidmət edilməli ilə bağlı xərclər olacaq".

Q.İbadoğlu çıxışının sonunda təkliflərini də səsləndirib. O, Büdcə Məcəlləsinin qəbul edilməsini təklif edib.

# Əli Abbasovun 11 ildə "yediyi" pullar - azı 40 miyon manat

## Qadir İbrahimli: "İctimaiyyətə açıqlanan rəqəmlər işin detallarıdır"

**Bir il əvvəl səs-küylü MTN hadisələrindən sonra nazir vəzifəsindən azad olunan Əli Abbasovla bağlı son günlərdə gedən xəbərlər gündəmə oturub. Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin sabiq rəhbərinin istintaqa verdiyi ifadədə aylıq şəxsi xərclərinin 200-300 min manat olduğunu deməsi onu son günlərin əsas "qəhrəman"ı etdi.**



Qadir İbrahimli

"Qəhrəman"la bağlı gündəmə bomba kimi düşən xəbər tək bu deyil. Belə ki, "Rabitə işi" ilə bağlı gedən məhkəmə prosesləri zamanı məlum olub ki, Ə.Abbasov ibtidai istintaq zamanı nazirlikdə törədilmiş qanunsuzluqla əlaqədar vurulmuş ziyana üzrə 6.836540 manat ödəniş aparıb. 10 il 9 ay nazir olan bir şəxsin bu qədər yeyinti etməsi daha çox tənqid olunsa da, buna inanmayıb müxtəlif fikirlər səsləndirənlər də var. Sabiq nazirin bu məbləğdən qat-qat vəsait mənimsədiyi bildirilir. Nazir olduğu 129 ayı özünün dili ilə desək, şəxsi xərclərinə görə sərf etdiyi 300 min manata vurduqda belə 6.8 milyon etmir... Bu, 40 milyon manata yaxın vəsait edir.

Yerdə qalan məbləği Abbasov nə edib və onu niyə ödəmir?

**İqtisadçı ekspert Qadir İbrahimli sabiq nazirlə bağlı yaranan müəmmalara aydınlıq gətirilməsinin vacibliyini deyir:** "Mütləq idi ki, həmin cinayət işində baş rolda nazirin adı keçəydi. Ola bilməzdi ki, nazirliyin rəhbər işçiləri korrupsiya ilə məşğul olsunlar, nazirin bundan xəbəri olmasın. Məsuliyyəti birbaşa Əli Abbasovun özü daşıyır. Məhkəmə zamanı bunlar sübut olunmalı idi. Amma təəssüf ki, siyasi xarakterli proses gedir. Bizə məlum olmayan səbəblərdən Əli Abbasova toxunulmazlıq veriblər. Əli Abbasov cinayət məsuliyyətinə cəlb olunmalı idi və o zaman bu məsələlər obyektiv şəkildə araşdırılardı. İstintaq birtərəfli gedib. Burada qaranlıq məqamlar çoxdur. Hesab edirəm ki, ictimaiyyətə açıqlanan rəqəmlər yalnız işin müəyyən detallarıdır. Korrupsiyanın real səviyyəsi ilə bağlı məlumatımız yoxdur. Yalnız obyektiv araşdırma nəticəsində həqiqətlər üzə çıxa bilərdi. Bu da olmadı. Rabitə Nazirliyi kifayət qədər gəlirləri çox olan qurumdur. Buna görə hesab edirəm ki, mənimsənilən məbləğ indi açıqlanan rəqəmlərdən qat-qat çoxdur. Düşünürəm ki, burada Əli Abbasovun həbsinə hazırlıq prosesi də başlaya bilər. Açığı, bu ehtimalı az hesab edirəm. Çünki onun barəsində cinayət işinin açılması ilə bağlı yayılan xəbərlərdən sonra Baş Prokurorluq açıqlama yaydı ki, Əli Abbasov haqqında cinayət işinin açılmayıb və cinayət işində onun iştirakı araşdırılmır. Ola bilər ki, ondan xeyli dərəcədə təzminat alınıb. Yəqin ki, təzminat qaneedici olmayıb. Ondan psixoloji yolla yəqin ki daha artıq "təzminat" tələb edirlər. İstənilən halda bunlar hüquq sisteminə zidd olan məsələdir. Bütün günahları hüquq sisteminin üzərinə atmaq olmaz. Burada milyonlarla məbləğlərin mənimsənilməsindən söhbət gedir".

## BTRİB-ə yeni rəhbər təyin olundu

**Rövşən Əliyev Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin (BTRİB) baş direktoru vəzifəsinə təyin edilib.**

Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən "APA-Economics"ə verilən məlumata görə, nazir Ramin Quluzadə bununla bağlı müvafiq əmr imzalayıb.

Qeyd edək ki, R. Əliyev bu ilin 5 fevral 2016-cı il tarixdən BTRİB-də baş direktorun müavini vəzifəsinə təyin olunub və baş direktor vəzifəsini müvəqqəti icra edib:



## NATO baş katibi: "Rusiyanı təcrid etmək mümkün deyil"

**"Rusiyanı təcrid etmək mümkün deyil. Ona görə də onlarla əlaqələr yaratmaq, dialoq qurmaq zəruridir". "Report" TASS-a istinadən xəbər verir ki, bu sözləri NATO-nun baş katibi Yens Stoltenberq deyib.**

Dünən Belçika paytaxtı Brüsseldə Marşall Alman Fondunda çıxış edən Y.Stoltenberq Rusiyanın dialoqa açıq olduğunu bildirib: "Xarici işlər naziri Sergey Lavrovla görüşdə əldə etdiyim məlumatlara əsasən, deyə bilərəm ki, Rusiya da münasibətlərin bərpasında maraqlıdır. Onlar da dialoq qurmağa açıqdır".

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

## Yazıçı Anar Zabil Müqabiloğluna yardım edəcək

### Əflatun Amaşov isə "onun tam sağalması üçün müalicənin həyata keçirilməsi üçün lazımi tədbirlərin görülməsi razılaşdırılıb" deyib

**Xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin sədri Anar tanınmış jurnalist Zabil Müqabiloğlunun səhhətində yaranmış problemlərdən narahatlığını bildirib və daha bir qələm sahibinin sağlamlığının ağır duruma düşməsindən dərin təəssüf hissi keçirdiyini qeyd edib.**

Bu barədə "Yeni Müsavat"ın redaktoru ilə söhbətində AYB-nin "Ulduz" jurnalının baş redaktoru Qulu Ağsəs məlumat verib.

**Qulu Ağsəs deyib:** "Anar müəllim mətbuatdan Zabilin durumu ilə bağlı oxuyub və narahat olub. O məsələ ilə maraqlanıb və bəlli olub ki, Mətbuat Şurasının sədri Əflatun Amaşov Zabilin müalicəsinə köməklik göstərilməsi üçün dövlət rəsmiləri ilə danışıb, mümkün olan köməkliklər ediləcəyi deyilib. Bununla belə, Anar müəllim Yazıçılar Birliyinin imkanları daxilində Zabilə müəyyən bir maddi yardım ediləcəyini bildirib. Həmin vəsait Zabil Müqabiloğluna çatdırılacaq. AYB sədri Zabilə şəfa diləyir, onun tezliklə sağalmasını, yaradıcılığını davam etdirməsini arzu edir".

"Qaraciyərində yaranmış problemlərlə bağlı səhhəti kəskin şəkildə pisləşən jurnalist Zabil Müqabiloğluna qaraciyər köçürülməsi ilə bağlı iş aparılır".

**Bunu isə lent.az-a açıqlamasında Mətbuat Şurasının sədri, deputat Əflatun Amaşov deyib.**

Millət vəkilinin sözlərinə görə, jurnalistə qaraciyər köçürülməsi və buna qədərki müalicəsinin təminatı üçün müvafiq rəsmi qurumlarla danışıqlar aparılıb və ümumi razılıq əldə edilib:

"Danışıqlar əsasında ümumi razılıq əldə olunub. Jurnalistin qaraciyər köçürülməsi əməliyyatının gerçəkləşməsi üçün əvvəl uyğun donor tapılacaq, donor tapıldıqdan sonra əməliyyatın və onun tam sağalması üçün müalicənin həyata keçirilməsi üçün lazımi tədbirlərin görülməsi razılaşdırılıb. Biz Zabil Müqabiloğlunun tam sağalıb yenidən jurnalistikaya qayıtmasına sevinərik".

Nəzərə çatdıraq ki, noyabrın 7-də Zabil Müqabiloğlu daxili qanaxma diaqnozu ilə xəstəxanaya gətirilib. Onun qaraciyəri fəaliyyətini dayandırıb.

YENİ MÜSAVAT
N 257 (6578) 19 noyabr 2016



# Elnur Aslanov işdən çıxarıldı, birdəfəlik xaricə köçür

## Hələ avqust ayından Rabitə və Yüksək Texnologiyalar Nazirliyindəki işini atıb gedən E.Aslanovun ərizəsinin üstü yazıldı; indi həbsdə olan Vidadi Zeynalovun yaxın qohumunun kreslosu ona da düşmədi...

**Rabitə və Yüksək Texnologiyalar Nazirliyində kadr dəyişikliyi olub. Modern.az saytının əldə etdiyi məlumata görə, Elnur Aslanov nazirliyin Elektron İdarəçiliyin İnkişafı şöbəsinin müdiri vəzifəsindən çıxarılıb. Nazirliyin mətbuat xidməti məlumatı təsdiqləyib. Bildirilib ki, Elnur Aslanovun özü işdən çıxmaq haqqında ərizə yazıb və o, həmin ərizə əsasında vəzifədən azad edilib.**

E.Aslanovun hələ avqust ayından işə çıxmadığı məlum idi. Mediada ayyarım əvvəl yayılan xəbərlərdə E.Aslanovun nazirlikdən çıxmaq haqda istefa ərizəsi yazdığı, hətta ölkədən köçmək niyyətində olduğu bildirilirdi. İddia olunurdu ki, yeni nazir Ramin Quluzadənin adına yazdığı istefa ərizəsində E. Aslanov başqa bir beynəlxalq təşkilatda daha yaxşı şərtlərlə işləmək təklifi aldığını və bu səbəbdən də Rabitə və Yüksək Texnologiyalar Nazirliyindəki vəzifəsindən istefa vermək istədiyini vurğulayıb.

Hələ o vaxt bununla bağlı xəbərlərə nazirlik rəsmiləri konkret cavab verməsə də, E. Aslanovun avqust ayının ortalarından məzuniyyətə çıxdığını və iki ay keçsə də, işinə dönmədiyini bildirmişdilər. E.Aslanov isə saytların birinə açıqlamasında işdən çıxmasından danışmamışdı, sadəcə, xaricə köçməsi haqda məlumatları təkzib etmiş, Bakıda və məzuniyyətdə olduğunu təsdiqləmişdi.

2007-ci ilin dekabrından 2014-cü ilin martınadək Prezident Administrasiyasının Siyasi Təhlil və İnformasiya Təminatı şöbəsinin müdiri işləmiş E. Aslanovun adı tez-tez "Hizmət" hərəkatının rəhbəri Fətullah Gülənə yaxın adamlar sırasında hallandırılırdı. Türkiyədəki bələdiyyə seçkilər ərəfəsi Fətullah Gülənin "Hizmət" hərəkatı ilə o vaxtkı baş nazir Rəcəb Tayyib Ərdoğanın münasibətlərinin gərginləşməsi Azərbaycana da sirayət etdi. Azərbaycan hakimiyyətində də nurçuların olması barədə informasiyalarda əsas fiqurantlardan biri kimi E.Aslanovun adı hallanırdı. E.Aslanov martın 17-də prezidentin sərəncamı ilə işdən çıxarıldı, onun rəhbərlik etdiyi şöbə isə ümumiyyətlə ləğv edildi.

Amma elə həmin ilin aprel ayının 1-də gözlənilmədən E. Aslanov Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Strateji planlaşdırma, investisiya və elmi potensial şöbəsinin müdiri vəzifəsinə təyinat aldı. Maraqlıdır ki, o zamankı nazir Əli Abbasov E. Aslanovu indi həbsdə olan nazirliyin aparat rəhbəri Vidadi Zeynalovun yaxın qohumu Elçin Zeynalovun yerinə gətirmişdi.

E.Aslanov PA-dan uzaqlaşdırılandan sonra onun anası Rəbiyyət Aslanova da 2015-ci il parlament seçkilərinə buraxılmadı. Belə ki, YAP-ın parlament seçkilərində iştirak edəcək namizədlərinin siyahısından onun adı çıxarıldı. 109 saylı Balakən seçki dairəsindən deputat seçilən, parlamentdə İnsan haqları komitəsinə rəhbərlik edən Rəbiyyət Aslanova "partiyamız necə məsləhət bilir, elə də olur" deməklə məsələyə nöqtə qoydu. Onun yerinə isə Nəsimi rayonunun keçmiş icra başçısı Nəsib Məhməliyev mandat aldı. İstisna deyil ki, R.Aslanova da Bakını tərk etsin.

❑ **"YM"**

# "Azəristiliktəchizat" dövlətin 76 milyonunu necə buxarlandırdı - şok faktlar




## Bu qurumdan ölkənin ən məşhur köşə yazarı da şikayətçidi; ASC rəsmisi isə deyilənlərin həqiqət olmadığını söyləyir, işlərin normal getdiyini deyir

**Noyabrın 15-dən etibarən ölkədə rəsmi olaraq qış rejiminə keçilib. Amma bir çox sahələrdə, o cümlədən mənzillərə istiliyin verilməsi ilə bağlı problemlər qalmaqdadır. Ötən ay havalar kəskin soyuyanda, qış rejiminə keçməklə bağlı mətbuat yazdı, televiziyalar çəkib göstərdi, sosial şəbəkələrdə müzakirələr getdi. Bunlara baxmayaraq, hökumət israrla istilik sistemini işə salmadı. Bu, qanunvericiliklə əsaslandırıldı, bildirildi ki, qış rejiminə noyabrın 15-dən tez keçilə bilməz. Bu gün noyabrın 19-dur, hələ də Bakıda istilik verilməyən xeyli bina var. Bununla bağlı redaksiyamıza mütəmadi olaraq şikayətlər daxil olur. Həmçinin qəzetin əməkdaşları arasında da mənzillərinə istilik verilməyənlər var.**

"**Yeni Müsavat"ın köşə yazarı Zamin Hacı** "Azəristiliktəchizat" ASC-nin artıq ikinci ildir ki, yaşadığı binanı ümumi istilik sisteminə qoşmadığını bildirdi: "2015-ci ilin yayında "Azəristilik" əməkdaşları gəlib bizə bəyan etdilər ki, həyətinizdə qazanxana tikilir, hər kəs pul yığıb mənzildaxili istilik sistemini bərpa etsin. Son 20 ildə binada istilik sistemi olmadığına görə insanların hamısı istilik xətlərini kəsib atmışdı. Hamımız pul yığdıq, mənzillərdə istilik sistemini bərpa etdik, ara xətləri də çəkdik, zirzəmiyə qədər bütün xətləri apardıq. Burada 6 beşmərtəbəli binaya və bir doqquzmərtəbəyə istilik verilməli idi. Amma həmin ilin oktyabr ayında onlar bir beşmərtəbəli binanın iki blokuna qazanxanadan borular çəkdilər, onu binadaxili xətlərə birləşdirdilər və çıxıb getdilər. Camaat nə qədər şikayət etdisə, faydası olmadı. Dedilər ki, pul qurtarıb, qalan xətləri çəkə bilmirik. Təbii ki, bu, uydurma idi. Layihəyə pul ayrılmışdı, sadəcə, onlar o pulu "yemişdilər", ardı gəlməmişdi. Ona görə keçən il istilik verilmədi, sakinlər qışı qızdırıcılarla birtəhər yola verdi. Bu ilin yayında isə vəsait tapdılar, binanın zirzəmisinə qədər boruları çəkdilər. İndi daha əcaib bir problem ortaya çıxıb: deyirlər ki, binanın zirzəmisindəki xətləri boruya özünüz birləşdirin. Biz də onları başa sala bilmirik ki, biz dövlətin xəttinə nə isə birləşdirə bilmərik. Hazırda belə bir nazılıq var. Bu qurum Azərbaycanda ən fırıldaqçı və saxtakar idarələrdən biridir. İndi belə çıxır ki, bizim həyətimizdə qazanxana işləyir, ancaq biz oradan istilik ala bilmirik".

Qeyd edək ki, hazırda onlarla binanın sakinləri oxşar problemlə qarşılaşıb. Həmçinin paytaxtda ümumiyyətlə istilik sisteminə qoşulmayan binalar da var.

Məlumat üçün deyək ki, "Azəristiliktəchizat" ASC prezidentin 08 iyun 2005-ci il tarixli 847 saylı sərəncamı əsasında yaradılıb. Ötən 5 ildə isə bu quruma 76 milyon 191 min 834 manat pul ayrılıb. Qurum dövlət büdcəsindən 2012-ci ildə 19 milyon 137 min 692 manat, 2013-cü ildə 32 milyon 774 min manat, 2014-cü ildə 13 milyon 517 min 373 manat alıb və müxtəlif tenderlərdə satınalmalarda xərcləyib. Lakin xərclənən bu milyonlara rəğmən bu gün də nəinki ölkə ərazisində, paytaxtın mərkəzində belə istilik sistemi ürəkaçan vəziyyətdə deyil. Hətta ötən il isə "Azəristiliktəchizat"la "Azəriqaz" arasında yaranmış borc mübahisəsi səbəbindən paytaxt ərazisində istiliyin verilməsi total olaraq 10 gündən çox gecikib.

**"Yeni Müsavat"ın suallarını cavablandıran "Azəristiliktəchizat" ASC-nin abonent və müştəri xidmətlərinin rəisi Rafiq Əliyev bildirdi ki, hazırda bu qurum tərəfindən mənzillərə istiliyin verilməsi ilə bağlı kütləvi heç bir problem yoxdur:** "Lokal şəkildə bizə müraciətlər daxil olur. Ola bilər ki, bir binanın bir hissəsində istilik olur, bir hissəsində olmur. Onların hər birinə fərdi şəkildə yanaşıb problemin səbəbini tapmaq lazımdır. Qazanxanalarda heç bir problem yoxdur, hamısı işə düşüb. Fərdi problemləri isə məntəqələrdəki əməkdaşlarımız həll edirlər. Əsas problemlər binaların zirzəmilərində, binadaxili xətlərdə, mənzildaxili sistemlərdə olur. Elə sakinlərimiz var ki, mənzilində istiliyin olmaması ilə bağlı şikayət edir. İşçilərimiz gedib baxır ki, radiatoru bağlıdır. O dərəcədə xırdaçılıqla işçilərimiz maraqlanırlar. Elə problem də var ki, binadaxili xətlərdədir".

**Sakinlərin binadaxili və mənzildaxili xətləri şəxsi büdcələri hesabına təmir etdirməsinə münasibət bildirən Rafiq Əliyev bildirdi ki, mövcud qanunvericiliyə görə, "Azəristiliktəchizat"ın xidmət sərhədi idarənin balans mənsubiyyəti ilə müəyyənləşdirilir:** ""Azəristiliktəchizat"ın balansında qazanxana və binaya qədər olan məhəlləddaxili xətlərdir. Binanın girişində "Azəristiliktəchizat"ın sərhədi bitir və ora artıq bina mülkiyyətçisinin və balanssaxlayıcı təşkilatın əməlakıdır. Mənzildaxili istilik sistemlərinə isə mənzil sahibi cavabdehdir. Düzdür, biz indiyədək 1800-dən çox yaşayış binasının aşağı paylayıcı sistemini bərpa etmişik. Yalnız o halda biz bunu edirik ki, həmin binaların təmiri dövlətin inkişaf proqramına daxil edilir, o işin icrası "Azəristiliktəchizat"a həvalə edilir və bununla bağlı Nazirlər Kabineti tərəfindən konkret tədbirlər planına uyğun olaraq investisiya ayrılır. Qalan vaxtlarda isə biz yalnız öz balansımızda olan qazanxanalara və binaya qədərki məhəllədaxili xətlərə cavabdehik. Lakin bəzi hallarda binadakı problemlərin həllini də əməkdaşlarımıza həvalə edirik. Məsələn, binanın zirzəmisində su axırsa, əməkdaşlarımızı o problemin aradan qaldırılması üçün həmin ünvana göndəririk. Hansı ki, o, bizim işimiz deyil. Ancaq bu o demək deyil ki, kütləvi şəkildə bütün binalarda binadaxili istilik sistemlərinə "Azəristilik" cavabdehdir".

**Rafiq Əliyev onu da bildirdi ki, dövlətdən ayrılan investisiya ilə bu il 3 yeni qazanxana modernləşdirilib, 20-yə yaxın yaşayış binasının aşağı paylayıcı istilik sistemi bərpa edilib, 8 ədəd qazanxananın isə qazlaşdırılması layihəsi həyata keçirilib:** "Bundan əlavə, payız-qış mövsümünə hazırlıqla bağlı min kilometrə qədər məhəllədaxili istilik xətlərini hidravlik təzyiqlə yuduq, yoxladıq, bunlardan 20 kilometrə qədər hissə dəyişdirildi və təzəsi ilə əvəz olundu. Bundan başqa, "Azəristiliktəchizat"ın xidmət zonasında olan bütün qazanxanalarda qazanlar kimyəvi üsullarla təmizləndi. Magistral xətlərdə 16200 kvadratmetr istilik xəttinin izolyasiya qatı dəyişdirildi, təzəsi ilə əvəz olundu. 550 qazanxana, 92 istilik məntəqəsi yoxlanılıb hamısı istismara hazır vəziyyətə gətirilib və işə salınıb. Bu il "Azəriqaz"la heç problem yaşanmayıb. Bütün qazanxanaların qazı açıqdır, hamısı da qrafikə uyğun olaraq noyabr ayının 15-dən işə salınıb".

**Məktəblərə istiliyin verilməsinə gəlincə, Rafiq Əliyev məktəblilərin tətildə olması səbəbindən bunun mümkün olmadığını qeyd etdi:** "Hazırda məktəblilər tətildədir, məktəblərdə deməк olar ki, heç kim yoxdur. Hansı məktəbdə adam varsa, bizə müraciət edirlər, istilik sistemini açırıq. Hansı məktəb boşdursa, oranı bağlı saxlayırıq. Qorxuruq ki, suyu versək, hansısa sinifdə problem ola bilər, sinif otağını su basar. Ona görə də bəzi məktəblərlə bağlı direktorun bizə müraciət etməsini gözləyirik".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 257 (6578) 19 noyabr 2016

# 1,5 milyon manat rüşvət alan nazir müavini niyə vəzifədə saxlanılır?

## "Rabitə çetesi"nin məhkəməsində verilən ifadələr dəhşət saçır; **Aslan İsmayılov:** ""Sprut"da da belə səhnələr olmayıb"

**MTN işi üzrə tutulan "rabitə çetesi"nin üzvlərinin məhkəməsində müttəhimlərin və şahidlərin verdiyi bir sıra ifadələrdən heyrətə gəlməmək mümkün deyil. Məsələn, "Bakı Telefon Rabitəsi" İstehsalat Birliyinin (BTRİB) sabiq baş direktoru Beytulla Hüseynov istintaqa ifadəsində nazir müavini İltimas Məmmədova ev tikintisi üçün 1,5 milyon manat pul verdiyini deyib. B.Hüseynovun dediyinə görə, həmin pul BTRİB-in və nazirliyin digər strukturlarının vəzifəli şəxslərinin xərclərin şişirdilməsi, mənimsəmə və digər korrupsiya əməlləri nəticəsində keçmiş nazir Əli Abbasovun formalaşdırdığı "obşiy katyol"a topladıqları pullardan verilib.**

İltimas Məmmədov barəsində məhkəmədə və istintaqda səsləndirilən ittihamlara cavab vermək əvəzinə medianın bu barədə suallarına susmaqla qarşılıq verir. İ.Məmmədov ittihamlarla bağlı danışmaq niyyətində olmadığını deyib.

Özü isə hələ də rabitə və yüksək texnologiyalar nazirinin müavini işləyir. Haqqında bu qədər ciddi rüşvət ittihamı səslənən bir məmur vəzifədən dərhal çıxarılmalı və həmin ifadələrlə bağlı hüquqi araşdırmalar aparılmalı deyilmi?

**Müsavat Partiyası Divanının üzvü, hüquqşünas Razim Əmiraslanlı bildirdi ki, MTN işi ilə bağlı gedən məhkəmə prosesi cəmiyyətdə diqqətlə və hiddətlə izlənir. Bu məhkəmə prosesi göstərdi ki, ayrı-ayrı nazirliklər və vəzifəli şəxslər hansısa səviyyədə korrupsiyaya bulaşıblar, ölkənin varidatını necə talan ediblər. Bu bandanın hələ xeyli hissəsi azadlıqdadır, ən dəhşətlisi isə odur ki, hətta yüksək vəzifələrdə hələ də işləyənlər var:** "Rabitə Nazirliyinin özündə fəaliyyət göstərən cinayətkar dəstə keçmiş MTN-dəki bandaya xüsusi dəstək verib. Respublika Prokurorluğunun yaydığı açıqlamada da göstərilir ki, Rabitə və Yüksək Texnologiyalar Nazirliyində, onun tabeçiliyində olan müəssisə və şirkətlərdə büdcə vəsaitlərinin talanması üçün çoxsaylı korrupsiya sxemləri həyata keçirilib. Dövlət əmlakının sistemli şəkildə mənimsənilməsi və israf etmə yolu ilə talanması üçün rollar bölüşdürülməklə, ayrı-ayrı vəzifəli şəxslərdən ibarət korrupsiya şəbəkəsi təşkil olunub. Məhkəmədə verilən ifadələrdə adı korrupsiya və rüşvətə bulaşmış şəxslər olaraq çəkilən hər bir şəxs məsuliyyətə cəlb olunmalıdır. Böyük bir idarəyə rəhbərlik etmiş Beytulla Hüseynovun hələ də nazir müavini işləyən İltimas Məmmədova ev tikintisi üçün 1,5 milyon verdiyi barədə ifadəsi kifayət edir ki, bu ifadə əsasında araşdırma başladılsın və cinayət işi açılsın. Cinayət işinin istintaqına yüksək vəzifəli şəxsin vəzifəsindən istifadə edərək müdaxilə etməməsi üçün İltimas Məmmədov dərhal işdən azad edilməlidir. Beytulla Hüseynovun ifadəsində dedikləri sübuta yetirildiyi halda isə İltimas Məmmədov həbs edilməlidir.



İltimas Məmmədov

Artıq Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin bir çox vəzifəli şəxslərinə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə (külli miqdarda mənimsəmə, vəzifə səlahiyyətlərindən sui-istifadə, vəzifə saxtakarlığı) ittiham irəli sürülüb, məhkəmə gedir. Lakin açıq-aydın görünür ki, cinayət məsuliyyətinə cəlb edilməli şəxslərin sayı daha çoxdur. Bu çetenin üzvü olub, hələ də azadlıqda və eyni zamanda vəzifədə olan şəxslər barədə də istintaq orqanları araşdırma aparıb tədbirlər görməlidir. Dövlətin on milyonlarla manatını talamış bu adamların azadlıqda saxlanması vəzifədə olan digər insanların arxayınlaşması və korrupsiya ilə məşğul olmasına stimul verən amillərdəndir".

**Vəkil Aslan İsmayılov isə bildirib ki, məşhur italyan filmi olan "Sprut"da da belə səhnələr olmayıb. Oradakı insanlar cinayətkar olduqlarını etiraf edirlər. Bizimkilər isə özlərini mələk kimi aparır:** "Mətbuatın yaydığı "Bakı Telefon Rabitəsi" İstehsalat Birliyinin həbsdə olan baş direktoru Hüseynov Beytulla İbrahim oğlunun ifadəsində deyilir ki, hazırda Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin müavini işləyən İltimas Məmmədov ev tikintisi üçün "kotyoldan" 1,5 milyon manat alıb. İltimas Məmmədov isə dərhal təkzib edib ki, 1,5 milyon almayıb. Sadəcə, hər ay "kotyol"dan 30 min manat alıb. Bunların ifadələri də cinayətkar aləmin leksikonuna uyğundur.

Azərbaycanda korrupsiya az qala idarəetmə formasıdır. Məhz bu səbəbdən də korrupsiya faktlarına reaksiya verilmir. Qanuna azacıq riayət olunsa, Azərbaycanda istənilən məmuru həbsə atmaq mümkündür".

❑ Etibar SEYİDAĞA

# Gəncə Avtomobil Zavodu niyə özəlləşdirilir?

## Natiq Cəfərli: "Yük kimi dövlət büdcəsinin üzərində qalmışdı"

**Gəncə Avtomobil Zavodunun özəlləşdirməyə çıxarılması xeyli müzakirələrə səbəb olub. Nazirlər Kabinetinin qərarına əsasən zavod səhmdar cəmiyyət kimi investisiya müsabiqəsi yolu ilə özəlləşdiriləcək. Qeyd edək ki, Gəncə Avtomobil Zavodunun direktoru Kamran Nəzərovdur. Xanlar Fətiyev isə zavodun İstehsalat Birliyinin müşahidə sədridir. Qeyri-rəsmi mənbələrdən əldə etdiyimiz məlumata görə isə icraçı direktor K.Nəzərov olsa da zavodun əsl sahibi X.Fətiyevdir.**





Xatırladaq ki, zavodun əsası 1986-cı ildə qoyulub və yalnız 2004-cü ilin dekabrında fəaliyyətə başlaya bilib. Zavod özəlləşdirməyə çıxarılsa da hazırda fəaliyyət göstərir, maşın və traktorlar istehsal edir. Fəaliyyətinə "OKA", "UAZ", "CHANGAN" avtomobillərinin yığımı ilə başlayan müəssisə hazırda 35 çeşiddə texnika istehsal edir. 2007-ci ildən başlayaraq müəssisədə "Belarus" markalı traktor, ötən ildən isə "KamAZ" və "URAL" markalı avtomobillərin yığımına başlanılıb.

Maraqlıdır, bundan əvvəl adətən işləməyən müəssisələr özləşdirilməyə çıxarılırdı. Bəs görəsən, fəaliyyətdə olan Gəncə Avtomobil Zavodu niyə satışa çıxarılır? Səbəb hökumətin vəziyyətinin ağır olması, yoxsa gələn gəlirin xalqla bölüşdürülməsi istəyidir?

**Ekspert Natiq Cəfərli məsələyə bu cür şərh bildirdi:** "Gəncə Avtomobil Zavodu klassik avtomobil istehsalı ilə məşğul deyil. Sadəcə, yığım yeri kimi fəaliyyət göstərir. Xaricdən gələn müəyyən detallar müəyyən prosesdən sonra yığılaraq satışa çıxarılır. Xüsusən də «Belarus» traktorlarının çıxarılması ilə məşğuldur. Və buna da külli miqdarda dövlət büdcəsində vəsait sərf olunurdu. Yəni açıqcası rentabelliyi çox aşağı səviyyədə idi və yük kimi dövlət büdcəsinin üzərində qalmışdı. Büdcədə olan problemlərini həll etmək, kəsirləri bağlamaq üçün hökumət bu ildən başlayaraq özəlləşdirmə proqramlarını həyata keçirir. Və Gəncə Avtomobil Zavodunun özəlləşdirməyə çıxarılması bu anlamda həm dövlət büdcəsinin yükünü azaltmaq, həm də əlavə vəsait qazanmaq nöqteyi-nəzərindən doğru addımdır. Sadəcə, bu özəlləşmənin doğru-dürüst keçirilməsi, xarici ciddi investisiyaların cəlb edilməsi üçün kifayət qədər iş aparılmalıdır. Çünki əgər zavod özəlləşdirildikdən sonra ciddi fəaliyyət göstərməyəcəksə, yeni iş yerlərinin yaranmasında yenə də problemlər yaşanacaqsa, normal məhsul istehsal etməyəcəksə, bu, iqtisadiyyata heç bir xeyir verməyəcək. Ona görə də böyük xarici investorların, ciddi oyunçuların dəvət olunması üçün təklif proqramlarına ehtiyac var. Azərbaycan hökuməti bu özəlləşdirməni cəzbedici etməlidir ki, xarici böyük oyunçular burda iştirak etsin. Əgər bu baş verəcəksə, müəyyən effekt olacaq. Yox, əgər olmayacaqsa və müəyyən sxemlər vasitəsilə Gəncə Avtomobil Zavodu hər hansı bir yerli şirkət tərəfindən özəlləşdiriləcəksə, bunun böyük effekt verəcəyini düşünmürəm və Azərbaycan iqtisadiyyatına gələcəkdə hər hansı bir formada xeyir verməsi problemləri olacaq".

❑ Xalidə Gəray



# Əli Abbasov 6, 8 milyonu niyə ödəyib?

## Ekspert: "Ola bilər ki, ziyanın ödənilməsi nəzərə alınaraq, cinayət işinin icraatına xitam verələr "

**Sabiq rabitə və yüksək texnologiyalar naziri Əli Abbasov dövlətə dəyən ziyana görə 6 milyon 836 min manat ödəniş edib. Maraqlıdır ki, Ə.Abbasovun bu qədər yüksək məbləği istintaqa nə üçün ödədiyi bilinmir...**

Baş Prokurorluq da Ə.Abbasova qarşı cinayət işi açılmadığını deyib. Belə olduğu halda barəsində cinayət işi nazir 6 milyon 836 min manatı nə üçün ödəyib?

Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan hüquqşünas Müzəffər Baxış bildirib ki, Əli Abbasov həmin pulu könüllü olaraq da verə bilər:

"Əgər təqsirləndirilən şəxs qismində cəlb edilməyibsə, ona hər hansı bir ziyanla ittiham verilməyibsə, cinayət işi üzrə ödəmədən söhbət gedə bilməz. Ola bilər ki, onun barəsində cinayət işinin icraatına xitam versinlər və ona deyilsin ki, sən filan qədər dövlətə ziyan vurmusan. O da həmin məbləği ödəsin. Bu qərar da əslində qanuni ola bilməz. Çünki onun törətdiyi cinayət böyük ictimai təhlükə törətməyən cinayət deyil. Əgər 6 milyonluq mənimsəmə cinayətidirsə, bu, Cinayət Məcəlləsinin 179.3.2-ci maddəsi ilə tövsif olunan əməldir. Külli miqdarda mənimsəmə sayılır və 7 ildən 12 ilə qədər azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur. Bu isə eyni zamanda cinayətlərin ictimai təhlükəliyinə, xarakterinə görə ağır cinayətlər kateqoriyasına addir. Belə halda cinayət işinin icraatına xitam vermək mümkün deyil. Ancaq Azərbaycan reallıqlarında belə bir şey ola bilər ki, ziyanın ödənilməsi nəzərə alınaraq, cinayət işinin icraatına xitam verərlər. Bundan əlavə, ola bilər ki, onun barəsində material üzərində cinayət müəyyən edərlər ki, filan qədər ziyan vurub. Onun barəsində cinayət işinin başlanmasını rədd edərlər və göstərərlər ki, cinayət nəticəsində dəymiş ziyanı ödədi. Bunlar hamısı mülahizələrdir. Azərbaycanda qanundan bir qədər ətraflı keçməklə, bu cür qərarlar qəbul edə bilərlər".

**M. Baxış digər bir ehtimalı da bildirib:** "Bir də ola bilər ki, prokurorluq onun barəsində konkret olaraq Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin adından mülki iddia ilə mülki icraat qaydasında məhkəməyə müraciət edə və deyə ki, Əli Abbasov bu quruma 6 milyon ziyan vurub və ondan bu məbləğin alınması üçün qətnamə qəbul edilsin. Belə bir halın da olması mümkündür. Konkret olaraq hər yazılana da mən inanmıram. Saladığımız arqumentlərdən mülki iddia istisna olmaqla, digərlərində istintaqa bu pulu ödəyə bilər. Yaxud da könüllü ola bilər ki, özü deyər bu qədər ziyan vurmuşam və ödəyirəm".

❑ Əli RAİS

# Amerika Azərbaycandan işğalçının xahişini edəcək?

**ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Bricet Brinks gələn həftə ölkəmizə gələcək. Bu barədə ABŞ-ın Azərbaycandakı səfirliyindən bildirilib. Məlumata görə, görüşlər bazar ertəsi gününə təsadüf edəcək. Xanım Brinksin Azərbaycan rəsmiləri ilə təmasları planlaşdırılır.**



# Obamanın elçisi İrəvandan Bakıya xüsusi mesajla gəlir

## Azərbaycan rəsmiləri ilə görüşlərdə Qarabağ, atəşkəs məsələsi də diqqət mərkəzində olacaq; rəsmi Bakı üçün əsl fürsətdir amerikalı diplomatdan soruşsun ki...

Amerika rəsmisi hazırda Ermənistandadır. Burada o, artıq işğalçı ölkə rəsmiləri ilə bir araya gəlib. Əsas müzakirə mövzularından biri isə Dağlıq Qarabağ məsələsi olub. Erməni qaynaqlarının məlumatına görə, ABŞ diplomatı bu xüsusda təmas xəttində gərginliyin davamlı olması və yeni mümkün hərbi eskalasiyalardan dolayı ölkəsinin narahatlığını dilə gətirib.

**"Aprel hadisələri göstərdi ki, Dağlıq Qarabağ münaqişəsi üzrə status-kvo qeyri-stabildir".** Bunu Bricit Brink ABŞ-ın Ermənistandakı səfirliyində jurnalistlərlə görüş zamanı bildirib. **"Biz həqiqətən hesab edirik ki, status-kvo sabit deyil. Etimadın möhkəmləndirilməsi və danışıqların bərpa edilməsi üzrə işlərin aparılması vacibdir"**, - deyə Dövlət Departamentinin rəsmisi qeyd edib.

***

Erməni siyasi analitiklərinə görə, diplomatın ön plana çəkdiyi "etimadın möhkəmləndirilməsi üzrə işlərin zəruriliyi"nin arxasında ABŞ rəsmisi məhz təmas xəttində silahlı insidentlərin araşdırılması və atəşkəsin daha möhkəm edilməsi üçün yeni monitorinq-müşahidə mexanizmlərinin tətbiqini nəzərdə tutur - nə barədə ki, xeyli vaxtdır müzakirələr və mübahisələr səngimir.

Xatırladaq ki, aprel döyüşlərindən sonra belə bir mexanizmin tətbiqi ideyasını ABŞ ortaya atıb - ki, müharibə ehtimalı aradan qalxsın, eyni zamanda Rusiyanın Qarabağ ixtilaflından öz maraqları naminə sui-istifadə edib tərəfləri təhdid etmək imkanları minimuma ensin.

Təbii ki, Azərbaycan belə bir mexanizmə o vaxt razılıq verə bilərdi ki, Ermənistan məsələdə konstruktiv mövqe tutsun və ərazilərimizi boşaltmağa başlasın. Əks halda, bu, sadəcə, işğal rejiminin uzanması və Azərbaycanın əl-qolunun bağlanması, onun zor gücü ilə öz torpaqlarını azad etmək hüququnun əlindən alınması, ən betəri, mövcud işğal sərhədlərinin rəsmiləşməsi demək olardı. Hansına ki, Azərbaycan heç vaxt razılıq verə bilməzdi və vermədi də. Prezident İlham Əliyev səviyyəsində bu məkrli ideya rədd edildi. Çünki Ermənistan nəinki konstruktiv mövqeyə gəlmədi, üstəlik, az sonra daha radikal ritorika sərgiləməyə başladı.

Bunun bir səbəbi Rusiyadan alınan yeni silahlar, o sırada "İsgəndər" sistemləri idisə, digər mühüm səbəbi az sonra bəlli olduğu kimi, məhz ABŞ-ın ermənilərə təmas xəttinin dərinliklərinə nəzarət eləmək üçün C4İSR adlı güclü və müasir hərbi kəşfiyyat-müşahidə sistemi satması idi *(Belə sistemləri yalnız Amerika istehsal edir)*. **"Apreldə bizdə ön xətdə kifayət qədər müşahidə kamerası yox idi. İndi biz təmas xəttindəki mövqelərimizdə müasir C4ISR sistemi quraşdırırıq, bu da bizə bütün təmas xətti boyu müşahidə aparmağa imkan verir"**, - deyə o vaxt qondarma "DQR-in baş nazirinin" sözçüsü Artak Bəyləryan məsələ ilə bağlı amerikalı jurnalistə sevincək bildirmişdi.

***

Yəni belə çıxdı ki, Amerika həmsədr dövlət olaraq, faktiki şəkildə və birtərəfli qaydada, habelə Bakıdan gizli şəkildə işğal rejiminin möhkəmlənməsinə texniki yardım edir. Bu, əslində ABŞ tərəfindən Azərbaycana qarşı böyük bir təxribat idi.

Bu mənada rəsmi Bakı üçün əsl fürsətdir ki, məsələni Barak Obamanın emissarının qarşısında qaldırsın və ondan həmin sistemlərlə bağlı cavab tələb eləsin. Çünki heç şübhə yox ki, xanım Brinks Bakıya həm də etimad mexanizminə Azərbaycan rəhbərliyinin nəhayət, razılığını almaq üçün gəlir. Yəni xüsusi mesajla təşrif buyurur. Ən azından, buna bir daha cəhd ediləcəyi şübhə doğurmur.

Düzdür, Bricet Brinks artıq siyasi ömrü bitməkdə olan indiki Obama administrasiyasını təmsil edir. Ayrı sözlə, çox şey yəqin ki, yeni dövlət katibinin kimliyindən, onun Azərbaycan və Ermənistana münasibətindən və əlbəttə ki, yeni prezident Donald Trampin Azərbaycana, Dağlıq Qarabağ məsələsinə yanaşmasından və formalaşdıracağı komandadan asılı olacaq.

**Təki daha betər olmasın. Bu isə həm də rəsmi Bakının Tramp dönəmində diplomatik çevikliyindən asılı olacaq.**

❑ **Siyasət şöbəsi**

# Qərbin İslam dünyasına qarşı "İŞİD kartı"

## Müsəlmanlara qarşı sivilizasiya savaşının aparıldığı iddiaları var, bəs faktlar və gerçəklik nə deyir?

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan deyib ki, Qərb ölkələri İslamı gözdən salmaq üçün İŞİD terror qruplaşmasını dəstəkləyir. Pakistan parlamentində çıxışı zamanı Ərdoğan İŞİD-in İslam dininə heç bir aidiyyətinin olmadığını deyib, eyni zamanda əlavə edib ki, Türkiyə bu terror təşkilatına qarşı mübarizəni davam etdirəcək.**

Türkiyə prezidentinin bu iddiası Qərb mediası tərəfindən geniş tirajlanıb. Onun Qərb ölkələrini dünyanın bir nömrəli terror təşkilatının arxasındakı qüvvə elan etməsi ciddi rezonans doğurub və yəqin ki, növbəti siyasi qalmaqala səbəb olacaq.

O ki qaldı iddianın özünə, öncə ondan başlayaq ki, bu iddia yeni deyil. Məsələ ondadır ki, indiyədək bir sıra dövlətlər İŞİD-lə əlaqələndirilib. Məsələn, 2014-cü ildə İŞİD İraqın az qala yarısını işğal edəndə İraq parlamenti deputatları İŞİD-in ABŞ ordusu tərəfindən dəstəkləndiyi, Qərb aviasiyasının İŞİD-ə yardım daşıdığı haqda iddialar irəli sürəndə Türkiyənin o zamankı baş naziri İŞİD-i "qəzəblənmiş sünni gənclər" adlandırmışdı. Daha sonra İran və Rusiya mediası Türkiyə hakimiyyətini İŞİD-i dəstəkləməkdə ittiham etdi. Eyni zamanda Türkiyə mediası İŞİD-in İran, Suriya və Rusiya hakimiyyətləri tərəfindən dəstəkləndiyinə dair iddialar ortaya atıb. Bunlarla yanaşı, İŞİD-in ABŞ tərəfindən, Pentaqon generalı Devid Patreusun İraqdakı Amerikan ordusuna rəhbərlik etdiyi zaman yaradılması iddiaları olub. ABŞ rəsmiləri etiraf ediblər ki, 2012-ci ildə İordaniyada təlim keçdikləri "cihadçıların" sonradan İŞİD üzvü olduğunu biliblər.

İŞİD-i yaradan ölkə kimi adı hallanan daha bir dövlət İsraildir. İsrail dövlət rəsmilərinin çıxışları və üzə çıxan gizli yazışmalara əsasən, Yaxın Şərqdə xaosun davam etməsi yəhudi dövlətinin maraqlarına cavab verir, ərəblərin, necə deyərlər, başları özlərinə qarışır. İŞİD-i yaratmaqda günahlandırılan digər dövlət Böyük Britaniya hesab olunur. Bir neçə mənbələr İŞİD-in ortaya çıxmasında Britaniya xüsusi xidmətlərinin rolu olduğunu iddia edirlər. Bundan başqa, Qətər, Səudiyyə Ərəbistanı həm ideoloji yaxınlıq, həm də siyasi-strateji maraqlarının olması *(Suriya və İraqda İranı sıxışdırıb özlərinə yaxın qüvvələri hakimiyyətə gətirmək baxımından)* onların da zaman-zaman İŞİD-i yaradan və ya dəstəkləyən dövlətlər olaraq adlarının hallanmasına səbəb olub. Fakt odur ki, son bir neçə ildə İŞİD siyasi spekulyasiya mənbəyinə çevrilib.

### Bəs əlahəzrət fakt nə deyir?

Fakt faktlığında qalır ki, adətən bu cür terror qrupları və ya silahlı təşkilatların arxasında gizli dəstəkçi dövlətlər olur. Çünki bu qrupların yerləşdiyi bölgələrdə istənilən halda maraqlı dövlətlər var və bu durumdan onlar da yararlanır. Məsələn, 2014-cü ilin əvvəlində Suriyanın şimalında silahlı qruplar arasında savaş başlayanda Bəşər Əsəd ordunu Türkiyə-Suriya sərhədindən geri çəkdi. Çünki birincisi ordunun müqavimət gücü yox idi, ikinci və ən əsası da artıq orda İŞİD və digər silahlı qruplar arasında nüfuz savaşı başlamışdı və Əsəd üçün ən münasib olan ordunu geri çəkib İŞİD və "Nusra" kimi radikal qrupların bir-biri ilə savaşmasına tamaşa etmək idi.




Belə də oldu və ordu çıxdıqdan sonra başlayan savaşda İŞİD qalib gələrək digər qrupları əzdi. Və yaxud 2014-cü il iyun ayında İŞİD Mosul da daxil olmaqla, İraqın böyük bir ərazisini işğal edəndə amerikalılar və müttəfiqləri seyirçi idi. Çünki İranın təsiri altında olan Maliki hökuməti zəif düşmüş və faktiki olaraq məğlub olmuşdu. Bu prosesdə İŞİD Qərbin İrana qarşı edə bilmədiyini etdi.

Bu mənada İŞİD-in silahlanması, maddi gəlir əldə etməsi, dünyanın ən varlı terror təşkilatına çevrilməsi və eləcə də gizli neft satışı, antik əşyaların Avropa qara bazarlarına çıxarılmasında bir çox ölkələrin xüsusi xidmətlərinin ən azından göz yumması faktları olub. Çünki yuxarıda da qeyd elədiyimiz kimi, bu proses müxtəlif vaxtlarda fərqli dövlətlərin maraqlarına xidmət edib. Təbii ki, bu mərhələdə ən bariz görünən tərəflərdən biri Qərbdir.

Bu mənada Türkiyə prezidenti haqlıdır. Qərb bölgəni yenidən qarışdırmaq, sərhədləri yenidən çəkmək üçün İŞİD və onun kimi qruplardan istifadə etmək istəyib. Qərbin hansısa ölkəsinin, xüsusi xidmətlərinin və ya biznes qurumlarının bu qaranlıq proseslərdə iştirakı tamamilə realdır.

### Qərb İslamı gözdən salmaq istəyir?

Son illərin ən geniş yayılmış frazası budur: Qərb İslamı gözdən salmaq üçün rəy formalaşmağa çalışır ki, İslam radikalizmi, terroru dəstəkləyir, terror təşkilatları yaradır. Əlbəttə, bu iddialarda müəyyən həqiqət payı var. Yuxarıda sadaladığımız səbəblərdən Qərbin də bu regiondakı maraqlarını reallaşdırmaq üçün bu və ya silahlı qrupu, terror təşkilatlarını dəstəkləməsi faktları var. Heç şübhəsiz ki, Qərbdə İslamı özlərinə rəqib sivilizasiya olaraq görən mühafizəkar qruplar var. Bu cür qrupların İslama qarşı gizli savaş açması mümkündür.

Amma ortada bir acı həqiqət də mövcuddur: müsəlman ölkələri özləri də hansısa birlik, bütünlük, İslam sivilizasiyası deyilən bir anlayış ortaya qoya bilməyiblər. Müsəlman aləminin xarici təsirlərə qarşı "immuniteti" o qədər zəifdir ki, kənardan istənilən "virus" ona rahat yoluxa bilir. Parçalanmış, bölünmüş, dini dəyərlərin siyasi iqtidarlar əlində vasitəyə çevrildiyi müsəlman dünyasının nəinki xarici təsirlərə qarşı dayanmaq immuniteti yoxdur, öz içərisində belə fikir sabitliyi əldə edə bilmir. Bu səbəbdən indi İslam düşmənlərini tamamilə xaricdə axtarmaq fikirləri çox ciddi arqument kimi görünmür.

❑ **Kənan RÖVŞƏNOĞLU**




# Qumarda 270 min dollar uduzduğu deyilən sabiq deputatın hekayəsi

## Bu gün "5 manatım yoxdu" deyən Fərhad Qəribovun vaxtilə Abdulla Gülün qardaşı ilə biznes ortaqlığının olduğu haqda məlumatlar var

**Mətbuatda sabiq deputat Fərhad Qəribovun Tiflisdə kazinoda qumar oynaması ilə bağlı xəbərlər yayılıb. Jurnalist Eynulla Fətullayev yazıb ki, Qəribovu özü şəxsən Tiflisdə kazinoya gedərkən görüb və daha sonra onun kazinodakı oyununu izləyib. Jurnalistin iddiasına görə, Qəribov 270 min dollar uduzub və bundan sonra yanındakılara kənardan əlavə pul gətiriləcəyini deyib.**

Sabiq deputat özü isə Tiflisdə kazinoda 270 min dollar uduzması ilə bağlı barəsində yayılan məlumatı təkzib edib. F. Qəribov "Qafqazinfo"ya deyib ki, yayılan məlumatların hamısı boş və yalan sözlərdən ibarətdir: "Mən "pensioner" adamam. Mənim pulum var ki, gedim kazinoda oturum?! Videoya da yaxşı baxın. Görün mənəm o videoda?"

Qeyd edək ki, Fərhad Qəribov 2005-2015-ci illərdə Kürdəmir seçki dairəsindən Milli Məclisin deputatı olub. Ancaq Qəribov deputat fəaliyyəti ilə bağlı deyil, mediada daha çox biznes fəaliyyətləri və adı ətrafında maliyyə qalmaqalları ilə məşhurlaşıb.

1952-ci ildə Kürdəmirdə anadan olmuş F.Qəribov mühəndis olub, sovet illərində Meliorasiya və Su Təsərrüfatı Nazirliyinin regional idarəsində müxtəlif vəzifələrdə işləyib. Daha sonra "Azərneftlayihətikinti" istehsalat birliyində rəhbər vəzifə tutub. Müstəqillik illərində isə biznesə girişib və 2000-ci illərin əvvəllərində "Debütbank"ı təsis edib. Habelə "Azəri-Holdinq" maliyyə-sənaye qrupuna rəhbərlik edib. Bundan başqa, Kürdəmirdə şirə zavodu, bazarın, bir sıra iaşə və ticarət mərkəzlərinin sahibi olduğu, habelə paytaxtda fəaliyyət göstərən "Çıraq Plaza" hoteli, "Şəki" restoranlar şəbəkəsi, ticarət obyektləri və mebel sexlərinin olması haqda mətbuatda məlumatlar yayılıb. 2005-ci ildə deputat olan F.Qəribovun biznesini oğlanları idarə edib.

Hətta 2000-ci illərin əvvəllərində Qəribovun Türkiyənin o zamankı prezidenti Abdulla Gülün qardaşı ilə biznes ortaqlığının olması ilə bağlı məlumatlar mediaya yol tapmışdı. Ancaq 2010-cu ildən sonra F.Qəribovun biznesi sıxışdırılmağa başlayıb. Əvvəlcə onun şirə zavodu ətrafında qalmaqallar başlayıb. 2010-cu ildə isə Mərkəzi Bank "Debütbank" ASC-yə verilmiş bank lisenziyasını geri alıb. Buna səbəb bankın fəaliyyətində yol verilmiş ciddi pozuntular olub. Baş Prokurorluğun iki il əvvəl yaydığı rəsmi məlumatda deyilirdi ki, "Debütbank" 2006-2008-ci illərdə Sahibkarlığa Kömək Milli Fondunun müvəkkil kredit təşkilatı kimi fəaliyyət göstərərkən fonddan ayrılmış 3 milyon manata yaxın güzəştli kredit bankın vəzifəli şəxsləri tərəfindən ayrı-ayrı hüquqi və fiziki şəxslərdən saxta biznes planları, hesabat sənədləri qəbul etməklə mənimsənilib.

Mətbuat yazıb ki, Sahibkarlığa Kömək Milli Fondunun güzəştli kreditlərinin mənimsənilməsi üzrə Fərhad Qəribovun oğlu Elnur Qəribov istintaqa cəlb olunub, dindirilib, onun ölkədən çıxışına qadağa qoyulub. Bəzi məlumatlara görə, o vaxt deputat olan Qəribov özü də mənimsəmə işi ilə bağlı istintaqa ifadə verib, baş verənlərdən xəbəri olmadığını iddia edib.

2011-ci ildə isə Kürdəmirdəki şirə zavodunun qətlə yetirilən mühasibi Nadir Mehdiyevin oğlu Kərim Mehdiyev Zöhrab Qəribovla *(Fərhad Qəribovun oğlu-red.)* bağlı ittihamlar irəli sürmüşdü. K.Mehdiyev iddia edirdi ki, atasını itkin düşməmişdən əvvəl Zöhrab Qəribovun maşınına minən görüblər.

Deputatın daha bir oğlunun adı "Debutbank"la bağlı məhkəmə işində hallanırdı. İndi bağlanmış bankın Müşahidə Şurasının sədri Rəşad Qəribov dələduzluqla üzləşmişdi. R.Qəribov bildirirdi ki, Emin Əmirov adlı şəxs onun 14 milyon manat pulunu mənimsəyib.

F.Qəribov 2014-cü ildə oğlunun Beynəlxalq Bank işində adının keçməsini təsdiqləyən açıqlama verərək oğlunun 8 il əvvəl Cahangir Hacıyevlə şərikli iş qurduğunu etiraf etmişdi.

❑ **KƏNAN**

**Parlamentdə keçirilməsi gözlənilən 2017-ci ilin dövlət büdcəsinin müzakirələri öncəsi əmək haqlarının azlığı məsələsi yenidən gündəmə gəlib. Bir neçə gün öncə bəzi informasiya mənbələrində belə bir xəbər yayıldı ki, guya deputat Vahid Əhmədov 2200 manat maaş aldığı halda, hazırkı vəziyyətdə dolanmağın çətin olması səbəbindən bu məbləğin artırılmasını istəyib. Ancaq sonradan V.Əhmədov bu cür xəbərlərin necə yayılmasından xəbərsiz olduğunu bildirdi və qeyd etdi ki, haqqında yanlış informasiya yazanlar barədə ölçü götürülməsi üçün addımlar atacaq.**

# Deputatların maaş artımı təklifi niyə qıcıqla qarşılanır?



**Aqil Abbas:** "Mənim üçün fərq etməz, az olar az xərcləyərəm, çox olar çox xərcləyərəm və maaşımdan narazılıq eləmirəm"



**Zahid Oruc:** "Əgər yoxsulluq şəraitində yaşayan insanlarımız varsa, deməli, həm də biz günahkarıq"



**Qubad İbadoğlu:** "Cəmiyyət gözləntilərini deputatlardan ala bilmədiyinə görə onlara qarşı bir aqressiya var"

Lakin deputat təkzib etsə də, onun demədiyi fikirlərin müzakirəsi sosial şəbəkələrdə davam edir, olduqca aqressiv münasibət sərgilənir. Diqqətçəkən odur ki, bundan əvvəl də parlamentarların maaşının artırılması, komitə sədrlərinə xidməti avtomobillərin verilməsi ilə bağlı qərarların qəbulu zamanıda cəmiyyətdən sərt təpkilərin şahidi oluruq. İlk baxışda bunun səbəbini anlamaq olar. Məsələn, əgər ölkədə yeni doğulan körpəyə görə işləyən ana cəmi 80 manat, yaxud analıq məzuniyyətində olduğu müddətdə hər ay cəmi 20 manat alırsa, 30-40 il işləmiş təqaüdçünün pensiyası 160-170 manatdırsa, elə müəllim, yaxud həkim də o qədər maaşa baxırsa, ya tələbə 50 manat təqaüdə göz dikirsə, deputatın aldığı 2 min manat kifayət qədər böyük rəqəm sayıla bilər. Ancaq araşdıranda deputatın özünün kifayət qədər məsrəflərinin olduğunu görmək mümkündür. Buraya xeyir-şər məclislərində iştirakdan, seçicilərlə görüşlərdən tutmuş, xarici səfərlərə qədər çox məsələlər daxildir. Ancaq maaş və təqaüdlər sarıdan ciddi bir təbəqələşmənin getdiyi halda, bunu qəzəbli auditoriyaya çatdırmaq, onu inandırmaq qeyri-mümkündür.

**Deputat Aqil Abbas bildirib ki, Azərbaycanın millət vəkilləri digər ölkələrə nisbətən az məvacib alırlar:** *(sonxeber.az)* "Azərbaycanın millət vəkillərinin aldığı maaş MDB məkanındakı digər respublikalarla müqayisədə xeyli aşağıdır. Hətta Dağıstanın millət vəkilləri belə bizdən çox maaş alır. Digər tərəfdən, bizim maaşımız 2200 manat yox, 1750 manatdır. Nəzərə almaq lazımdır ki, millət vəkilləri tez-tez müxtəlif səfərlərə çıxırlar. Məsələn, mən ayda 3-4 dəfə Ağcabədiyə, Füzuliyə gedirəm. Bütün bunlar isə maliyyə tələb edir. Deputata gərək normal maaş verəsən ki, o da işini görə bilsin".

**Dünən isə Aqil Abbas müəllif yazısında öz fikirlərinin də yanlış təqdim olunduğunu yazıb:** "Düzdür, mən o biri deputatlardan 60 manat artıq maaş alıram, Əməkdar jurnalist olduğuma görə. Soruşdular bu maaş sizə çatır? Mən də bildirdim ki, mənim üçün fərq etməz, az olar az xərcləyərəm, çox olar çox xərcləyərəm və maaşımdan narazılıq eləmirəm. Görürəm indi saytlar partapart paylaşır ki, Aqil Abbas deyir, deputatların maaşları artırılmalıdır. Vəssalam, söy ki söyəsən. Əvvəla, mən belə bir söz deməmişəm. Sadəcə olaraq, bildirmişəm ki, keçmiş SSRİ məkanında ən az deputat maaşı Azərbaycandadır, hətta Dağıstanda, eləcə də Gürcüstanda deputatlar bizdən çox maaş alır".

**Deputat Fazil Mustafa maaşından razı qalmasa da, reallığı qəbul edir:** "Deputat maaşı məni də qane etmir. Amma buna baxmayaraq əhalinin maaşı, orta gəlir səviyyəsi aşağı olduğuna görə bu məsələni gündəmə gətirmək doğru deyil. Ölkənin ümumi büdcəsində kifayət qədər dirçəliş, artım olarsa bu məsələni qaldırmaq olar".

**YAP-çı deputat Aydın Mirzəzadə qaynarinfo.az-a deyib ki, maaşları yüksəkdir, artırılmasına ehtiyac yoxdur:** "Bizim məqsədimiz bu gün əhalinin az gəlirli təbəqəsinin maaşının qaldırılmasıdır".

**Deputat Zahid Oruc isə "Yeni Müsavat"a öncə bildirdi ki, mövzunun ictimai gündəmə çıxmasına səbəb kimi göstərilən müsahibənin o xarakterdə olmadığı haqda dəqiq məlumatlıdır:** "Bununla belə, hakimiyyət orqanları arasında xüsusi yer tutan parlamentin üzvləri ilə bağlı cəmiyyətdəki həssaslıq başadüşüləndir. Deputatlar xalq təmsilçiləri kimi qəbul etdikləri qanunların nəticəsində sosial rifaha və güclü hüquqi təminata söykənən milləti qarşılarında görməlidirlər. Əgər yoxsulluq şəraitində yaşayan insanlarımız varsa, deməli, həm də biz günahkarıq. Hazırkı zamanın tələbi ölkəmizdə yeni iqtisadi siyasətə keçidi təmin etməkdir. Yüz minlərlə insanın bank sektoru ilə məhkəmə savaşında qaldığı, ölkənin xarici ticarət dövriyyəsinin aşağı düşdüyü və əhalinin gəlirlərinin azaldığı bir dönəmdə hakimiyyət orqanları mühüm addımlar atmalıdılar. Söhbət ilk növbədə manatın sabitliyini təmin etməklə zədələnmiş iqtisadi-sosial mühitin aktivliyini bərpa etmək, ölkəni tərk edən valyutanın qarşısını almaq və beynəlxalq birjalardan asılı qalan hökumət imicindən çıxmağı bacarmaqdır".

**Z.Oruc qeyd etdi ki, qısa müddətdə mənfi tendensiyaların qarşısını almaq mümkündür:** "Çünki yetərli valyuta ehtiyatları ilə xaricdən ixrac olunan böhrana müqavimət göstərilə bilər. Elə olan təqdirdə sıravi vətəndaşlarımızla millət vəkilləri arasında yaxşı atmosfer formaşalacaq və həyat şəraitinin yüksəlməsi qədim Romadakı kimi "ağa və rəiyyət" yanaşmalarını ortadan qaldıracaq, yaşayış səviyyələri arasında mütənasibliyə səbəb olacaq. Hər halda, indi dövlətdən narazı olanların parlamenti hədəfə çevirməkdə maraqlı olduğunu nəzərə alaraq, informasiya məkanında baş verənləri diqqət mərkəzində saxlamaq gərəkdir. Çünki ictimai qəzəb saçmağa hədəf kimi göstərilən şəxslər üzərindən aparılan kampaniyada məqsəd sosial-siyasi parçalanmaya nail olaraq hakimiyyət uğrunda bolşevik mübarizəsi aparmaqdır. Əhalinin ehtiyac kisəsini toqquşma alətinə çevirmək istəyənlərə fürsət vermək olmaz".

**İqtisadi Tədqiqatlar Mərkəzinin rəhbəri Qubad İbadoğlu isə "Yeni Müsavat"a bildirdi ki, ölkədə devalvasiya gedirsə, inflyasiya ikirəqəmli ifadə olunursa, bütün əmək haqları, o cümlədən parlament üzvlərinin maaşları indeksləşdirilməlidir:** "Ona müvafiq olaraq müəyyən əmsallar tətbiq olunmalıdır ki, yaşayış xərclərinin artımına adekvat olaraq əmək haqqının da artımı davam elənsin. Amma məsələ bundan ibarətdir ki, parlamentdəki deputatların ən böyük işi elə büdcə ilə bağlıdır. Bu məsələlər də hamısı büdcədən keçir. Bir çox ölkələrin parlamentində büdcə prosesi 9 ay, 6 ay, ən pis variantda 3 ay qabaqdan başlayır. Azərbaycanda hələ də 2017-ci ilin büdcəsi müzakirəyə çıxarılmayıb və bir dənə deputat bu müzakirələri tələb etmir. Cəmiyyət də ona görə onların çıxışlarını aqressiya ilə qəbul edir. Bu adamlar öz işlərini görmürlər, işlərində tələbkar deyillər, məsuliyyətlərini dərk eləmirlər - mən təbii ki, bunu hamıya şamil etmirəm, söhbət böyük əksəriyyətdən gedir - amma belə məsələlərdə daha aktiv olurlar. Şəxsən mən iqtisadçı kimi fikirləşirəm, nəyə görə ölkənin əsas sənədlərindən biri bu gün müzakirələrdə yoxdur? Hələ də növbəti illə bağlı müzakirələr parlamentdə başlamayıb və heç kəs bundan danışmır? Təbii ki, cəmiyyətin gözləntiləri var və o gözləntilərini deputatlardan ala bilmədiyinə görə onlara qarşı bir aqressiya var".

**Q.İbadoğlu cəmiyyətin kasıb təbəqəsinin gəlirlərinin çox aşağı olmasının da bu aqressiyanın təməlində dayandığını təsdiqlədi:** "Şübhəsiz ki, deputatların maaşı orta aylıq əmək haqqından dəfələrlə çoxdur. Söhbət 5-6 dəfədən gedir və kifayət qədər ciddi fərq də cəmiyyəti qıcıqlandırır. İşləyən insanlar da istəyirlər ki, onlar da deputatlar kimi yüksək əmək haqqı alsınlar. Başqa ölkələrlə müqayisədə deputatların əmək haqqı az olsa da, cəmiyyətdəkilər bu əmək haqqını öz maaşları ilə müqayisə edir".

**Orta aylıq əmək haqqının 490 manat olduğunu deyən Q.İbadoğlu xatırlatdı ki, əhalinin böyük bir qismi bundan da aşağı məbləğdə əmək haqqı alır:** "Xüsusilə də müəllimlər, həkimlər orta aylıq əmək haqqı səviyyəsindən də aşağı əmək haqqı alır".

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 257 (6578) 19 noyabr 2016

# Həbsdəki generalın ailə üzvləri danışdı




# Akif Çovdarovun bacılarından səs-küylü açıqlamalar - "yalandı, fitnə-fəsaddı"

## Qənirə Çovdarova: "Nəvələrinə deyirik ki, babanız Almaniyaya müalicəyə gedib"; "Akifin təkcə mədəsi, öd kisəsi çıxarılmayıb, onun ürəyi də başqasınındı"

## Fəridə Çovdarova: "Anam deyəndə ki, Akif, bu toyuğu kəs, deyərdi mən qan tökə bilmərəm, nisgilli söhbətlər eşidəndə, gözləri dolardı onun"

**"Yeni Müsavat" qəzetinin reportyor qrupu hazırda Gürcüstanın Marneuli rayonunun Alget (əvvəlki adı Gorarx-red.) kəndində ezamiyyətdədir. Həbsdə olan general Akif Çovdarov bu kənddə doğulub, boya-başa çatıb. Müxbirlərimiz A.Çovdarovun qohumları, sinif yoldaşları, ailə üzvləri danışıb, onun barəsində məlumat toplayıb. Algetdən hazırlanan reportajın ikinci hissəsini təqdim edirik.**

*(əvvəli ötən sayımızda)*

***

Çovdarovları doğma Gorarx kəndində digərlərindən ayıran bir vacib cəhət, hamı kimi rəncbər deyil, tacir zümrəsindən olmalarıdır. Sovet vaxtları ticarət qadağan edildikdə Çovdarovlar özlərini itirmirlər. Məcbur qalıb rəncbərliyə, əkinçiliyə qayıtmırlar. Üz qoyurlar maarifçiliyə, müəllim sənətinə. Yəni ən çətin anlarda Çovdarovlar düzgün qərar verib, reallıqla barışmağı həmişə bacarıblar. MTN generalı Akif Çovdarovun atası Teymurxan kişi müşküllərı, düyünlü işləri çözüb açan bir şəxs kimi də tanınır öz doğma yurdunda.

**Hümayə Namaz qızı Nəsibova Akif Çovdarovun sinif yoldaşıdır, 10 il onunla eyni parta arxasında oturub. Hazırda Teymurxan Çovdarovun adını daşıyan məktəbin 54 müəllimindən biridir. Həmin günləri o, belə xatırlayır:**

- Alget çayı, adından da göründüyü kimi, kəndimizdən həmişə özüylə pay aparıb. Yəni alıb və gedib. Ağacları kökündən qoparıb, qoyun-quzunu, mal-qaranı tələf edib, övladlarımızı dərin sularında boğub batırıb. 1952-ci ilin yazında kəndimizi az qala sel yuyub aparacaqmış. İşə Teymurxan müəllimin qarışmağı çayın arzusunu gözündə qoyub. Hamı taleyi ilə barışdığı bir vaxtda, qollarını çırmalayıb işə girişib. Şagirdlərinə verdiyi "ağacları kəsin, atın çayın axarı qarşısına, sahilləri möhkəmləndirin!" əmri, lap yerinə düşür. Kəndimizi labüd fəlakətdən o vaxt məhz Teymurxan kişinin qətiyyəti qurtarır. Kəndimizin mərkəzindəki "İmam Əli" məscidi də həmin fəlakətin ağzından geri qayıdır. Yəni Çovdarovlar həmişə ən çətin anlarda düzgün qərar verməklə tanınıblar bu kənddə. Uçurumun ağzından labüd qurbanları həmişə geri qaytarmağı bacarıblar".

**Məktəbin "Müəllimlər otağı"na yığılmış müəllimlər canlanır. Söhbətə başqaları da qoşulmağa tələsir.**

**Fizika-riyaziyyat müəllimi Əmiraslan Aslan oğlu Hacıyev deyir ki, Teymurxan müəllimin ailəsində cinayətkar yetişə bilməzdi:**

"Gördüyünüz bu məktəb binasının bir qanadını, düz sözümdü, o elə öz şagirdlərinə, əmək təlimi dərsləri zamanı tikdirib. Kənardan kimsəni bu işə cəlb etməyib əsla. Zəhmətkeş insan idi, ailəsində özü kimi zəhmətkeş övladlar böyüyüb. Akifə verilən ittihamların heç birinə inanmıraq. O, öz zəhməti ilə gedib o kürsüyə qalxmışdı, əməyi sayəsində general rütbəsinə qədər yüksəlmişdi".

**Dediklərinin ardınca, Əmiraslan kişi əl atıb qoltuq cibindən iki qat bükülmüş köhnə bir sənəd çıxarır. Eynəyini, sallaq ciblərində bir xeyli axtarıb, səbrimizi imtahana çəkir sanki. Axır, doldaqlarını yaşlayıb başlayır gürcücə yazılmış bu məktubun mənasını danışmağa:**

- Marneuli bələdiyyəsi, bizim bu 1 saylı orta məktəbə mərhum Teymurxan kişinin adını verəndə Akif Çovdarov heç MTN-də işləmirdi, yadınızda saxlayın. Bu da sənəd. Kor-kor, gör-gör. Diqqətlə






baxın bu sənədə.

**Sənəd Əmiraslan müəllimin ovucları arasında tam açılıb geniş ictimaiyyətin diqqətinə çatdırılınca aləm bir-birinə dəyir.**

- Görürsüz! Bakıda ictimaiyyəti aldadırlar. Çovdarovlar həmişə öz xeyirxahlıqları ilə tanınıblar kəndimizdə. Bir vaxt məktəb ətrafını su basmışdı. Yola düzdüyümüz daşların üstü ilə yazıq uşaqlarımızın dərsə gedib-gəlmələri zarafat gəlməsin indi sizə. Çovdarovlar bunu da həll etdilər bizimçün. Arx çəkib o suları bu binadan uzaqlaşdırdılar. Yaddan çıxarmı bütün bunlar, həəə, özünüz düşünün?"












**Qəfil hamının səsi xırp kəsilir öz-özünə. Araya çökmüş dərin sükutu pozmağa ön sırada oturmuş ancaq bir qadının gücü çatır.**

- Mən biologiya müəlliməsi Qənirə Çovdarovayam, Akifin doğmaca bacısı. İstintaqa təzyiq bilərəm bütün bu fitnə-fəsadları. Yüzdəyüz! Hadisələr barədə ilk məlumatlar mətbuatı silkələyəndə, bacıyam da, dözmədim, üz tutdum Bakıya, qardaşımın yanına. Dedi, ay qız, yalandı bütün bunlar. Görmürsənmi işimin başındayam, yad yerdə yox, öz kabinetimdəyəm. Get evə, rahat yat".

**Cümləsinin bu yerində Qənirə xanımın gözləri dolur, səsi batır bir an. Söhbətini o, artıq bir başqa səslə davam etməyə məcbur qalır.**

- Akif Çovdarov iki dəfə aclıq elan edib, biləsiz! Mədəsi kəsilib götürülmüş adama aclığı necə rəva bilirlər, başa düşmürəm. Akifin öd kisəsi də yoxdu... Kəsib götürüblər. Ürəyini də bir başqasınınkı ilə əvəzləyiblər. Bunu da bilin! Qan-damar sistemi də, Almaniyada büsbütün dəyişdirilib... Nəvələrinə yalandan deyirik, bəs baba Almaniyaya müalicəyə gedib. Bəs bir azdan qayıdıb gələcək.

**Bacının harayına qarşı sırada oturmuş o biri bacı, Çovdarovların sonbeşiyi Fəridə də hay verməyi özünə borc bilir bu vaxt.**

- Qarabağ veteranı olduğunu, yaralandığını biz ancaq bax bu son zamanlarda eşitdik. Özü barəsində danışmağı sevməzdi qardaşım. Başqalarından həmişə susmağıyla, susqunluğu ilə seçilərdi o. Sənəti bunu belə tələb edirdi axı. Politexnikdən sonra Əhmədlidəki radio zavodunda çalışdı qardaşım. Ürəyiyuxa adamdı. Yaddaşımda axtarsam, cücə başı kəsməyi belə yadıma düşməz, vallah. Anamız ona deyəndə ki, ay Akif, bir cücəni kəs, deyərdi ki, qan tökmək mənlik deyil. Sentimental olub həmişə. Niskilli söhbətlərdə gözləri həmişə dolardı. Qan görəndə pis olardı, yadımdadı... Bir dostu vardı Rahib adında...boksçuydu...

***

Düzü, fikrim başqa yerdəydi deyə söhbətin sonrasını indi unutmuşam. Bacılara uzaqdan-uzağa baxdıqca öz-özümə deyirdim - "Tələsdirmə burdakıları. Görürsən ortada bir şübhəli boksçunun da adı çəkildi. Yadda saxla bu adı. Öyrən niyə görə Akifə kino qəhrəmanı Tarzanın ləqəbini veriblər vaxtı ilə. Kim verib? Niyə verib?"

Bacıları dinlədikcə bir məsələni aydınlaşdırırıq özümüz üçün. Akif Çovdarovun məlum bioqrafiyasında izaholunmaz boşluqlar var. Əvvəla, gözüyaşlı bacıların bu Tarzan adından, deyəsən, qətiyyən xəbərləri yox imiş. İkincisi, bacılar Politexniki bitirmiş Akif Çovdarov barəsində danışırlar indi burda. Rostov Ali Milis Akademiyasının məzunu Akif Çovdarovla isə həəə, belə de... bacılar, deyəsən, hələ tanış deyillər...

***

**"Müəllimlər otağı"nda hamı ondan danışmağı özünə borc bilir sanki. Əhəd Abbasov mətbuatda yazılanlardan narazılığını dilə gətirir:** "Götürüb yazır ki, Akif Çovdarovun atası qəssab olub. Bu boyda yalan, böhtan olar? Axı Teymurxan müəllimin ad-sanı bütün Gürcüstan azərbaycanlılarına, Azərbaycanda da bir çoxlarına yaxşı tanışdır. Buna bir nöqtə qoymaq, həqiqəti demək lazımdır. Teymurxan müəllim gənc yaşlarından pedaqoji fəaliyyətlə məşğul olub. Çovdarovların nəslində qəssab olmayıb. Bunu bütün el-oba bilir".

**Cavanşir İsmayılov da bu mövzunun ortaya atılmasından narazıdır. Deyir ki, Teymurxan Çovdarovun pedaqoji fəaliyyətinə görə onu dəfələrlə Gürcüstan Təhsil Nazirliyi mükafatlandırıb:** "Akif Çovdarov Teymurxan müəllimin oğludur. Həyatında qazandıqları da atasının düzgün tərbiyəsi, istiqamət verməsi ilə baş tutub. Kimsə onun adını qaralamağa çalışmasın".

**Humayə Namaz qızı Nəsibova 10 il Akif Çovdarovla eyni partanı bölüşüb. Deyir ki, sinif yoldaşı haqda bu gün qəzetlərdə, saytlarda, TV-lərdə yazılanlar həqiqət ola bilməz:**

- Məktəb direktorunun, özü də o cür direktorun övladı heç kiməsə qarşı bir haqsızlıq edərdimi? Özünüz düşünün, mümkün olası deyil axı bu iş.

**Humayə xanım bizi sinfə dəvət edir. Bir vaxt Akiflə bölüşdüyü parta arxasında, birinci sırada, müəllimlə üzbəüz otuzdurur.**

- On il... düz on il burda, birinci sırada, müəllimlə üzbəsurət oturub mənim Akif qardaşım. İctimaiyyətçi olub. Özünə qapanmayıb heç vaxt. Özünü bir an Akifin yerində hiss et. Gör belə yerdə 10 il əyləşən şagird cinayət-filan edərmi heç? Mümkün deyil.

Sinif otağını buraxıb, aşağıdakı məktəb həyətinə enirik. Həyətdə Azərbaycan və Gürcüstan bayraqları yan-yana dalğalanır. Həmçinin SOCAR bayrağı da bu sıradadır. Ötən il SOCAR Algetdəki "Həzrət Əli" məscidini əsaslı təmir etdirib. Amma ustalar bir səhv yol verib. Məscidin qədim günbəzini malalayıb, tarixiliyini ört-basdır edib. Bizə isə bu kənddə məhz qədimliyi qorumaq, onu başqalarına göstərmək lazımdı...

Ümid edirik ki, tezliklə həm də bu səhv aradan qalxar.

Hələlik isə Alget sakinlərinin bizə verdikləri şikayət məktublarını çantamıza qoyub, Bakıya gedən kənd yoluna çıxırıq.

❑ Həmid HERİSÇİ,
❑ Elşən BALAXANILI

YENİ MÜSAVAT
N 257 (6578) 19 noyabr 2016

# Azərbaycanı dirçəlməyə qoymayan səbəblər...



**Qabil Hüseynli:** "İtkilərimiz də var, uğurlarımız da"



**Mehriban Vəzir:** "...Müstəqilliyini qazanan xalq yoruldu"

**Azərbaycan bugünlərdə 17 noyabr Milli Dirçəliş Gününün 28 illiyini qeyd etdi. Bu günlə bağlı istər sosial şəbəkələr, istərsə də mətbuat səhifələrində gileyli mövqelərə də rast gəlinir. Bu cür düşüncələr də var ki, milli azadlıq hərəkatının sonunda müstəqillik qazansaq da, müstəqil olduqdan sonra xalq gerçəkdən dirçələ bilmədi. Xüsusilə sosial problemlər məngənəsində boğulan insanlar bu fikirdədir. Eyni zamanda Azərbaycanın bir qrup məmur-oliqarxın korrupsiya əməlləri nəticəsində inkişafdan qaldığını bildirənlər də var. Buna sübut kimi isə MTN işi üzrə istintaqın gedişində Eldar Mahmudov, Akif Çovdarov, Əli Abbasov və digərlərinin üst-üstə milyardlarla xalq vəsaitini illər ərzində mənimsəməsi və buna göz yumulması, nəticədə xalqın çətin duruma düşməsi göstərilir...**

Ölkə müxalifətinin VHP qərargahında Milli Dirçəliş Günü ilə bağlı keçirdiyi tədbirdə də əsas fikirlər bunun üzərində quruldu. Çıxış edənlər əksər sahələrdə problemlər yaşadığımızdan, müstəqillikdən sonra torpaqlarımızın bir hissəsinin işğal edilməsindən danışdı və mövcud durumdan gileyləndilər. Problemin köklərini hər kəs bir yerdə axtarır, lakin ortaq məxrəcə gəlmək olmur.

**Politoloq Qabil Hüseynli ictimaiyyət arasında gəzən belə fikirlərlə razı deyil:** "İqtisadi sahədə inkişaf var. Regionun lider dövlətiyik. Əhalinin maddi rifah səviyyəsi də əvvəlki illərə nisbətən yüksəkdir. Yəni dirçəliş var. Ola bilsin ki, arzu etdiyimiz səviyyəyə gəlib çatmamışıq. Mənəvi sahədə dirçəlişin problemləri ola bilər. Amma iqtisadi-siyasi səviyyədə Gürcüstan və Ermənistandan öndəyik, postsovet məkanının qabaqcıl ölkələrindən biriyik. Son Milli Dirçəliş Günündə Azərbaycan iqtisadiyyatında dirçəliş var və bunu dirçəliş kimi də qəbul etmək lazımdır. İtkilərimiz var, bunlar danılmazdır. Dağlıq Qarabağı itirmişik, müharibədə uduzmuşuq. Amma son dövrlərdə ordu quruculuğu sahəsində ciddi irəliləyişlər var. 2-5 aprel savaşları bunu açıq şəkildə göstərdi. Bölgədə yaranmış şərait, Rusiyanın kobud müdaxiləsi problemin həllinə mane olur. İtkilərimiz də var, uğurlarımız da. Bunların hansının daha çox olduğunu söyləmək bir qədər çətindir. Amma hər halda, Azərbaycan inkişaf yolundadır. Azərbaycan inkişafın müxtəlif yollarını seçib və hər sahəyə də xüsusi diqqət ayrılır. Burada demokratiya da, demokratik inkişaf modeli də, çoxpartiyalı sistem də var. Amma bunların hamısının yetkin səviyyədə olduğunu söyləmək bir qədər çətindir. Bunların hər birində bəzi nöqsanlar var. Azərbaycanın seçdiyi inkişaf yolu dünya xalqlarının getdiyi yoldur. Bunun sırf bizə aid olan özünəməxsus halları da var".

**Yazıçı-publisist Mehriban Vəzir bir qədər fərqli danışdı:** "Əsas olan odur ki, düşmən bizdən güclüdür. Azərbaycanı işğal edən və 200 il əsarətdə saxlayan imperiya hələ də güclüdür. Hələ də bu imperiya Qafqaza sahib olmaq iddiasındadır. Bunu həyata keçirmək üçün addım-addım irəliləyir. Bir də sanki milyonlarla ayağa qalxıb, öz müstəqilliyini qazanan xalq yoruldu. Azadlığı əldə etmək bir mühüm məsələdir, onu qoruyub saxlamaq ikinci mühüm məsələdir. Azərbaycan xalqı azadlığını qoruyub saxlamaq uğrunda mübarizəsini davam etdirə bilmədi. Bunun obyektiv və subyektiv səbəbləri var. Həm cəmiyyətdə, həm də idarəetmədə səhvlər oldu. Bu gün belə fikirlərin ayaq açıb yeriməsinin, müstəqilliyin dirçəliş gətirməməsinin başlıca səbəbləri bunlardır. Azadlığı qorumaq onu qazanmaq qədər vacib məsələdir, xalq və dövlət üçün. Biz bunun mahiyyətini bilmədik və ona görə də ona sahib ola bilmədik".

❑ **Cavanşir ABBASLI**





# Eldar Mahmudovun oğlunun şirkətinin mənimsədiyi milyonlar - istintaq ifadələrindən seçmələr

## Anar Mahmudovun "Cartburg Netvorks corp" şirkətinin şok maxinasiyaları üzə çıxdı

**"Rabitə işi" üzrə həbs edilən yüksək vəzifəli şəxslərin cinayət işi üzrə istintaq ifadələrində yeni detallar üzə çıxır. Başda sabiq nazir Əli Abbasov olmaqla, nazirliyin aparat rəhbəri olmuş Vidadi Zeynalov, nazir müavinləri və digər vəzifəli şəxslərin ifadələrindən görünür ki, məmurlar nazirlikdə rabitə işi ilə deyil, "yüksək mənimsəmə texnologiyalarından" istifadə edərək öz ciblərini doldurmaqla məşğul olublar. Elə sabiq nazir özü deyib ki, onun aylıq xərcləri 200-300 min manat olub...**

Hazırda həbsdə olan sabiq məmurların işi üzrə istintaq materiallarında diqqət çəkən məqamlardan biri "AzIntelecom" MMC və "Cartburg Netvorks corp" şirkəti ilə bağlıdır.

**Sirli "Cartburg Netvorks corp" şirkəti...**

Dövlət büdcəsindən yayındırılan milyonların nazirlik işçilərinin və digər vəzifəli şəxslərin cibinə necə axması istintaq zamanı şahid qismində dindirilən "AzIntelecom" MMC-nin direktoru Cəlil Cəfərovun dediklərindən də aydın olur.

C.Cəfərov 2004-cü ilin aprel ayında Əli Abbasovun əmri ilə nazirliyin strukturuna daxil olan Beynəlxalq Əlaqələr və Hesablaşma Mərkəzinin direktoru təyin edilib. 2015-ci ilin əvvəllərində həmin mərkəzin bazasında "AzInTelecom" MMC yaradılıb. O, MMC-nin direktoru vəzifəsinə təyin edilib.

"AzInTelecom" MMC əsasən telefon trafikinin beynəlxalq istiqamətlərə daşınması, ötürülməsi və qəbul olunması ilə məşğul olub.

C.Cəfərov deyib ki, bu mərkəzin yaradılması informasiya texnologiyaları sahəsində yenilik olmaqla rabitə və digər sahələri əlavə xərclərdən azad olunmaq məqsədi daşıyıb.

Beynəlxalq trafikin daşınmasında 2013-cü il tarixdə "Cartburg" şirkəti ilə nazirliyin Beynəlxalq Əlaqələr və Hesablaşma Mərkəzi arasında beynəlxalq telefon trafiki mübadiləsinin təşkil edilməsi və əməkdaşlıq haqqında müqavilə bağlanıb. Müqavilənin şərtlərinə əsasən tərəflər keyfiyyət göstəriciləri təmin olunmaqla və hər hansı qeyri-qanuni rabitə xidmətləri istisna olunması şərti ilə Azərbaycanla dünya ölkələri arasında beynəlxalq telefon trafiki mübadiləsinin təşkil edilməsi və İKT sahəsində əməkdaşlıq haqqında razılığa gəliblər.

Müqavilə "Cartburg Netvorks corp" şirkətinin direktoru M.Efrosini arasında imzalanıb. Bu müqavilə sabiq nazir Əli Abbasovun göstərişi ilə imzalanıb.

**Nazir oğlunun şirkəti ilə müqavilə bağlanmasının səbəbi**

C.Cəfərov ifadəsində deyib ki, həmin şirkətlə müqavilə bağlanılmasına səbəb MTN ilə birgə fəaliyyət göstərməklə qeyri-qanuni yollarla, "simboks" və digər avadanlıqlar vasitəsilə respublikaya daşınan beynəlxalq qaydalara uyğun olmayan trafikin qarşısını almaq, həmçinin rəsmi kanallarla trafikin yönləndirilməsini təşkil etmək olub.

Şirkətlə bağlanmış müqavilədən gözlənilən əsas nəticə, yəni ümumi trafikin tam həcminin artması əldə olunmayıb.







**Vidadi Zeynalova aylıq 300 min dollar çatırmış**

C.Cəfərov qeyd edib ki, şirkətin rəsmi rəhbəri sənədlər üzrə M.Efrosini olsa da, onun fəaliyyətinə faktiki rəhbərlik edən şəxs kimi Ayaz Kərimovu tanıyıb. O bildirib ki, Ayaz Kərimov sabiq nazir Eldar Mahmudovun oğlunun yaxın dostudur.

Məlumata görə, Eldar Mahmudovun oğlu Anar Mahmudovun dəstəyi ilə dostu Ayaz Kərimov həmin şirkətə rəhbərlik edib.

Şahid söyləyib ki, "Cartburg" şirkəti özünün əldə etdiyi gəlirlərdən asılı olaraq aylıq kimi hər ay nazirliyin aparat rəhbəri Vidadi Zeynalova pul verib. Həmin məbləğin miqdarı 300.000 dollar ətrafında olub.

**Cəlil Cəfərov 50 min maaşa "azdır" deyir...**

Şahid özünün aylıq əmək haqqının 50 min manat olduğunu deyib. O, 21 ay maaş aldığını söyləyib. MMC-nin digər işçilərinin ümumi aylıq əmək haqqı isə 29 min manat olub.

İstintaq zamanı toplanmış ilkin sənədlərə əsasən müəyyən edilib ki, Cəlil Cəfərov qulluq mövqeyindən istifadə edərək özü və üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etməyə çalışıb.

Cəlil Cəfərov Cinayət Məcəlləsinin 179.3.2 və 308.2-ci maddələri ilə təqsirli bilinir.

**22 milyon 471 min manat...**

İstintaq zamanı o da məlum olub ki, Kanadada qeydiyyatdan keçmiş "Cartburg" şirkəti Azərbaycana daxil olan və çıxan beynəlxalq telefon trafiki üzrə digər mobil operatorların daha sərfəli qiymətlər təklif etmələrinə baxmayaraq, "Cartburg" şirkəti bu xidmətləri süni şəkildə artırıb. Bu üstünlüyü isə şirkətə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin rəhbərliyi verib. Nəticədə "Cartburq" şirkəti ümumilikdə 22 milyon 471 min manat məbləği ələ keçiriblər.

Bundan əlavə, müəyyən edilib ki, Cəlil Cəfərov rəhbərlik etdiyi MMC-yə və nazirliyə məxsus beynəlxalq və yerli məktubların daha aşağı qiymətlərlə daşınması mümkün olduğu halda, faktiki olaraq Vidadi Zeynalova məxsus "P.L.Z." MMC ilə müqavilə imzalayıblar.

Bu məqsədlə də "P.L.Z" MMC-yə 203 min manata yaxın vəsait ödənilib.

Cəlil Cəfərov irəli sürülən ittihamlarla özünü təqsirli bilməyib. O deyib ki, "Cartburg" şirkəti ilə müqavilə sabiq nazir Əli Abbasovun göstərişi ilə bağlanıb.

Onun sözlərinə görə, qiymətlərə, trafikin aylıq həcminə və keyfiyyətinə daim Əli Abbasov nəzarət edib. C.Cəfərov nazirə digər beynəlxalq operatorlarla əməkdaşlıq edildiyi üçün "Cartburg" la əməkdaşlıq etməməyi də təklif edib. Lakin Ə.Abbasov onun bu təklifi ilə razılaşmayıb.

**Əli Abbasov MTN-lə əlaqəli olan şirkətlə əməkdaşlıqda niyə maraqlı olub?**

Ə.Abbasov ona trafik həcminin sürətlə aşağı düşməsinin qarşısının alınması, eyni zamanda kibercinayətkarlığın qarşısının alınması üçün MTN-in böyük dəstəyi və köməkliyi lazım olduğunu, buna görə MTN-lə əlaqəli olan "Cartburg" şirkəti ilə müqavilə bağlanmasının zəruri olduğunu deyib.

Qeyd edək ki, C.Cəfərov "AzInTelecom" MMC-nin rəhbəri olmaqdan əlavə "Rabitə" voleybol klubunun rəhbəri də olub.

O, istintaqa ifadəsində qeyd edib ki, rabitə sahəsində mütəxəssis kimi ona verilən aylıq 50.000 manat məbləğ... əməyi müqabilində az olub.

C.Cəfərov deyib ki, digər operatorlar ona daha yüksək, hətta ikiqat əmək haqqı ilə iş təklif etsələr də, bu təklifləri rədd edib həmişə dövlət üçün xidmət göstərməyi üstün bilib

C.Cəfərov "Cartburg" və "P.L.Z." şirkətləri ilə əməkdaşlığı rəhbərliyin göstərişi ilə etdiyini söyləyib. Yəni rəhbərliyin göstərişlərinə qarşı çıxmaq, göstərişləri icra etməmək və ya göstərilən şirkətlərlə deyil özbaşına başqa şirkətlərlə müqavilə bağlamaq və əməkdaşlıq etmək səlahiyyəti olmayıb.

Qeyd etmək yerinə düşər ki, sabiq nazirlər Eldar Mahmudov və Əli Abbasov yaxın dosluq münasibətlərində olublar. Əli Abbasov həmişə Eldar Mahmudovun yaxın adamı kimi bilinib. Elə bunun nəticəsi olaraq da Eldar Mahmudov vəzifədən uzaqlaşdırılan kimi, Əli Abbasov da postu ilə vidalaşmalı oldu.

❑ **İlkin MURADOV**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 257 (6578) 19 noyabr 2016



# Qarabağa dair "3+2" formatı... nəyi dəyişəcək?

## Minsk Qrupunun turist həmsədrləri ilin son akkordunu nazirlərin formal təması ilə vurmaq istəyirlər; **amerikalı keçmiş həmsədr:** "Tramp sülh haqda ciddi fikirləşsə, münaqişənin nizamlanmasında irəliləyiş mümkündür..."

**Azərbaycanın müstəqillik tarixində keçirdiyi ən böyük, möhtəşəm hərbi təlimlər başa çatdı. Bu manevrlər sözsüz ki, ən əvvəl işğalçı Ermənistana növbəti və daha sanballı əzələ nümayişi, iradə nümayişi idi. Təcavüzkara bir daha xəbərdarlıq idi ki, nəhayət, ağlını başına yığsın və işğal rejimini sonsuzadək uzatmağa, bəzi himayədarlarına ümid eləməsin.**




Azərbaycanın son hərbi təlimlərlə minimum hədəflərə çatdığını söyləmək olar. Ermənistan prezidenti Serj Sərkisyanın "RİA-Novosti"yə müsahibəsindən də göründüyü kimi, düşmən tərəf böyük müharibədən qorxur, Azərbaycanla silahlanma yarışında şansının olmadığını bilir və bu üzdən əsas ümidini Rusiyaya, onun "balans siyasəti"nə, hərbi dəstəyinə bağlayıb.

Rusiya isə belə görünür, Dağlıq Qarabağ konfliktinin ədalətli həllini yaxınlaşdırmaq niyyətində deyil və həmişə olduğu kimi, öz maraqlarına hesablanmış ənənəvi məkrli oyununu davam etdirir. Bu oyunun qayəsində isə Moskvanın özünü Azərbaycan və Ermənistana dost-tərəfdaş kimi göstərib, altdan-altdan münaqişənin həllini əngəlləmək, iki ölkəni lazım bildiyi qədər öz siyasi-hərbi təsir dairəsində saxlamaq dayanır.

*****

**"Moskva Dağlıq Qarabağ münaqişəsindən Azərbaycan və Ermənistan arasında balans yaratmaq vasitəsi kimi istifadə edir". Bu barədə ABŞ-ın kölgə kəşfiyyatı sayılan "Stratfor" Araşdırmalar Mərkəzinin "Rusiya üçün bəzi münaqişələr həmişəkindən daha soyuqdur" başlıqlı yazısında deyilir. Yazıda postsovet məkanında hələ də davam edən münaqişələrdən bəhs edilir.**

"Bu münaqişələr əsasən etnik və mədəni azlıqların məskunlaşdığı ərazilərdə baş verib. Sovet ölkələri üzərində Moskvanın nəzarəti zəiflədikdən sonra bu ərazilərdə gərginlik artdı, silahlı münaqişələr baş verdi. SSRİ dağıldıqda sonra isə yeni postsovet ölkələrinin nəzarətindən kənarda de-fakto dövlətlər yarandı", - məqalədə deyilir.

**Yazıda həmçinin Rusiyanın Cənubi Osetiya, Abxaziya, Ukrayna, Dnestryanı kimi münaqişələrdən fərqli olaraq Dağlıq Qarabağ münaqişəsindən istifadəsinin bir qədər mürəkkəb olduğu qeyd olunur:** "Çünki bu ölkənin münaqişə zonasında birbaşa hərbi fəaliyyəti yoxdur. Moskva bu münaqişədən Azərbaycan və Ermənistan arasında balans yaratmaq vasitəsi kimi istifadə edir və Qafqazda hakim xarici güc olaraq qalır. Ermənistanın Moskva ilə strateji müttəfiq olmasına və Azərbaycanın daha çox balanslı xarici siyasət yürütməsinə baxmayaraq, Rusiya hər iki ölkəyə onlardan birinin digərinə qarşı daha gözüaçıq dayanması və təhlükəsizlik ehtiyacları baxımından Rusiyadan asılı olması üçün silah satır".

**O da bildirilir ki, Moskva ilə Qərb arasında ziddiyyət münaqişə zonalarında təhlükəsizlik durumunu daha dinamik edir:** "Aprel ayında Dağlıq Qarabağda eskalasiya baş verdi, yüzlərlə insan öldü, yaralandı və ya itkin düşdü. Moskva və Qərbin bu keçmiş sovet periferiyasında təsirini artırmaqla bağlı yarışı bu ərazilərdə və onun yaxınlığında təhlükəsizliklə bağlı vəziyyəti daha da qeyri-stabil edə bilər".

*****

Bu, doğrudan da belədir. Rusiya -ABŞ (Qərb) rəqabətinin güclənməsi Qarabağ ixtilafının həlli yolunda son zamanlar əlavə əngəllər yaradıb. Bu əngəllər ATƏT-in Minsk Qrupu həmsədrlərinin onsuz da səmərəsiz olan fəaliyyətində də özünü göstərməkdədir. Belə ki, prezidentlərin iyun Sankt-Peterburq görüşündən sonra analoji təması təşkil eləmək yönündə vasitəçilərin göstərdiyi səylər fiasko olub. İlin sonunadək isə olsa-olsa, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin həmsədrlərlə birgə görüşü reallaşa bilər.

Yeri gəlmişkən, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Fransaya işgüzar səfəri çərçivəsində noyabrın 17-də Fransanın xarici işlər və beynəlxalq inkişaf naziri Jan-Mark Eyro ilə görüşüb. XİN-in mətbuat xidmətindən verilən məlumata görə, görüş zamanı tərəflər Azərbaycan və Fransa arasında siyasi, iqtisadi, mədəniyyət və təhsil sahələrdə ikitərəfli əlaqələrin indiki durumu və perspektivləri, o cümlədən son zamanlar sürətlə inkişaf edən regionlararası əməkdaşlıq məsələlərini müzakirə ediblər və Azərbaycan-Fransa münasibətlərin bütün sahələrdə müsbət və davamlı şəkildə inkişaf etməsindən məmnunluq ifadə ediblər.

Nazirlər həmçinin Dağlıq Qarabağ münaqişəsinin həlli və danışıqlar prosesinin perspektivləri ətrafında fikir mübadiləsi aparıblar. Onlar münaqişənin tezliklə siyasi həllinə nail olunması məqsədilə danışıqlar prosesinin məntiqli və nəticəyə yönəlmiş əsasda davam etdirilməsinin vacibliyini təsdiq ediblər.

Bu xüsusda Elmar Məmmədyarov fransalı həmkarı tərəfindən irəli sürülmüş, dekabrın 8-də Hamburqda keçiriləcək ATƏT-in nazirlər toplantısı çərçivəsində xarici işlər nazirləri səviyyəsində "3+2" formatında görüşün keçirilməsi təklifini qəbul etdiyini bildirib. Səfər əsnasında Məmmədyarov Fransanın ATƏT-in Minsk Qrupundakı yeni həmsədri səfir Stefan Viskonti ilə ayrıca görüş keçirib.

Ancaq nazirlərin həmsədrlərlə "3+2" formatında görüşü nəyi dəyişəcək, əgər prezidentlərin bu formatda görüşü belə, heç olmasa hansısa ortaq bəyannamənin qəbulu ilə yekunlaşa bilmirsə? Əlbəttə ki, sual ritorikdir. Belə görünür, Minsk Qrupunun turist həmsədrləri ilin son akkordunu nəyləsə vurmaq istəyiblər və bu da XİN başçılarının onlarla formal təması şəklində olacaq.

*****

**Beləcə, Qarabağ münaqişəsinin həllində daha bir qiymətli il itirilmiş oldu. Maraqlıdır ki, ekspertlərin təzə illə bağlı da gözləntiləri nikbin deyil. Minsk Qrupunun ABŞ-dan sabiq həmsədri, Birləşmiş Ştatların ölkəmizdəki keçmiş səfiri Metyu Brayza da optimist deyil.**

"Dağlıq Qarabağ münaqişəsinin həll prosesinin necə inkişaf edəcəyini Allah da bilmir, mən necə bilə bilərəm?" Bu sözləri eks-diplomat sülh danışıqlarının perspektivini şərh edərkən deyib. Onun sözlərinə görə, ABŞ-ın yeni prezidenti Donald Tramp sülh haqqında ciddi fikirləşərsə, Qarabağ münaqişəsinin nizamlanması yönündə irəliləyişə nail olmaq mümkündür. "Lakin biz bilmirik yeni prezidentin başında nə var və o nə düşünür", - deyə Brayza qeyd edib.

"Prezidentlər və xarici işlər nazirlər görüşmədikləri halda münaqişə dinc yolla həll oluna bilməz". Bunu da keçmiş səfir söyləyib. O, Rusiya prezidenti Vladimir Putinin Rusiya və Ermənistan qoşunlarının birləşmiş qruplaşmasının yaradılması haqqında sazişi təsdiqləməsinə də münasibət bildirib (APA). Brayza Minsk Qrupunun həmsədri kimi Rusiyanın bu addımı necə atdığını anlamadığını deyib. Onun sözlərinə görə, Putin Qarabağ münaqişəsinin həllində Rusiyanın əsas iştirakçı olduğunu sübut etmək istəyirsə, belə addımlar atmamalıdır. Sabiq diplomat onu da qeyd edib ki, hər iki tərəf - Azərbaycan və Ermənistan danışıqlar masası arxasına qayıdıb, müzakirələr aparmalıdır.

**Ancaq bu müzakirələr nəyi dəyişəcək, əgər Ermənistan Rusiyaya arxalanıb öz cəzasızlığına əmin olmaqda davam edəcəksə və maksimalist tələblərindən geri durmayacaq-**

YENİ MÜSAVAT
N 257 (6578) 19 noyabr 2016



# SSRİ-ni dağıdanlardan biri ilə söhbət

Samir SARI

**Dünən işə gələndə SSRİ-ni dağıdanlardan biri ilə yol yoldaşı oldum, xeyli söhbət etdik. Yox, söhbət Mixail Qorbaçovdan, Leonid Kravçukdan və Stansilav Şuşkeviçdən getmir. Düzdür, SSRİ-nin dağıdılmasında ən çox bu adamların adı hallanır, amma mənim yol yoldaşım bir eloğludur, hazırda eyni məhəllədə yaşayırıq. Fəhlə adamdır, yük avtomobillərindən yük boşaldır, ya da yükləyir. Onunla vaxtaşırı yol yoldaşı oluruq.**

Dünən səhər də salamlaşıb yola rəvan olduq. Hava çox soyuq olduğuna görə söhbət binalara istiliyin verilməsi üzərindən başladı. Qonşum dedi ki, bunlar sovet vaxtı tikilən binalardır, divar panelləri künclərdə əyri-üyrüdür, ha təmir edirsən, yenə divarlar nəmlənir. Dedim, elə olmağına elədir, amma möhkəm binalardır, o vaxt zəlzələ olanda yaxşı tab gətirdi, görünür, bu binaları tikənlər sement-filan işlədiblər.

Belə deyəndə həmsöhbətim qımışdı və dedi: "Mən sovet vaxtı tikinti trestinin beton zavodunda betonqarışdıran olmuşam".

Zarafatla dedim ki, sizin vaxtınızda indiki kimi olmazdı, yəqin ki, daha keyfiyyətli iş görərdiniz. Eloğlu güldü və söhbətə başladı: "Vallah, biz indikilərdən də betər idik. 250 kilo vurmalı olduğumuz halda 100 kilo sement vururduq. Bir sex rəisimiz vardı, gəlirdi, dururdu, başımın üstündə, deyirdi, 100-lük düyməni bas. Deyirdim, qorxuram, bizi tutacaqlar. Deyirdi, sənin işin yoxdur, bas. Basmayanda, düyməni özü basırdı. Bir dəfə lap az vurmuşduq, plitələr də yaxşı qurumamışdı, kran qarmağına ilişdirib paneli qaldırmaq istəyəndə qarmaq çıxdı, beton ovulub töküldü. Günahı atdıq istixananın gecə işləməməsinin üstünə, birtəhər aradan çıxdıq".

"Yəqin ki, işlətmədiyiniz sementi satırdınız" - bu mənim özümə də olduqca sadəlövh görünən sualım idi. Eloğlu təsdiqlədi: "Hə, mühəndislər, sex rəisləri satırdılar. Mənə də bahalı pivə, yaxşı yemək-içmək alırdılar, hərdən 3-5 manat da verirdilər. Təkcə sementi satmırdıq ki... Daş da satırdıq, armatur da, üzlük daşlar da. Əlimizə nə keçsə... Kimin imkanı vardısa, hamı satırdı, dartıb-dağıdırdılar".

Eloğlunun sözlərindən aydın oldu ki, sovet vaxtı tikintidə olan pul və mənimsəmə halları, yəni "yeyinti" heç bir sahədə olmayıb. Tikinti trestlərinin rəisləri milyonçu sayılırmışlar və rayonların ən nüfuzlu adamları olurmuş və yeyinti işlərinə birbaşa özləri baxırmış. Ona görə də bəzən iki ilə təhvil verilməli olan obyekt 5-6 ilə belə başa gəlmirmiş. Hər dəfə tikintiyə ayrılan pulları basıb yeyirmişlər, sonra yeni büdcə ayrılırmış, o da yeyilirmiş, axırda layihə rəhbərini dəyişdirir, yığdıqlarının da çoxunu əlindən alırmışlar.

"1987-dən sonra kiçik müəssisə yaratmaq dəb oldu. Mənim də kiçik müəssisəm vardı. Gedirdik, iri müəssisələrə, mühasiblərlə anlaşırdıq, hesabımıza pul köçürtdürürdük, sonra nağdlaşdırıb bölürdük. Elə olurdu ki, bankda sovxoz- kolxozların, məktəblərin, xəstəxanaların kassirləri oturub gözləyirdilər, amma biz pul çıxarırdıq. Hətta ayda 3 dəfə pul çıxardığımız olurdu ", - eloğlu söhbət etməkdəydi.

Arada onu keçmişə xiffət hissi basmarlayıb altına aldı, kövrəlmiş şəkildə dedi: "Hayıf, gözəl dövlət idi SSRİ. Bəy kefində dolanırdıq. Hələ mən fəhlə adam idim, amma qaçqın düşəndə sarı bazar kulokları olurdu ha, onunla dolu pul gətirmişdim Bakıya. Ağlım olmadı, iki banderolu ilə "Nərimanov"da üçotaqlı ev ala bilərdim, almadım ki, qayıdıb iş görəcəm. Sonra gördüm xərclənir, qurtarır, indiki evimi aldım. Allah Qorbaçovun evini yıxsın, gül kimi dövləti dağıtdı, qoydu bizi yaman günə".

Sağollaşıb ayrılmağımıza bir az qalmış dedim ki, eloğlu, Allah Qorbaçovun evini yıxmağına yıxsın, etirazım yoxdur, amma SSRİ-ni təkcə o yıxmadı axı. Sovet fəhləsi bu fikrimlə razılaşdı: "Hə, biri də Yeltsin idi". Amma mən razılaşmadım, gülə-gülə dedim ki, yox, biri də sən olmusan. "Sementi, daşı, qumu, armaturu sata-sata, bank maxinasiyaları edə-edə, hər cür fırıldağa əl ata-ata SSRİ-ni dağıtdınız, indi oturub vaysınırsınız", - dedim.

Eloğlu etiraz etmədi, SSRİ-ni dağıdanlardan biri olmasıyla razılaşdı. Bəlkə də bu, dissidentliyin bir növüdür. Adam dolayısı ilə ölkəmizə müstəqillik qazandırıb.

# Ali Məhkəmə İlqar Məmmədovu həbsdə saxladı

## REAL sədrinin çoxdan gözlənilən məhkəməsi baş tutsa da, onun kasasiya şikayəti təmin olunmadı

**Noyabrın 18-də Ali Məhkəmədə REAL Hərəkatının həbsdəki lideri İlqar Məmmədov və Müsavat başqanının müavini Tofiq Yaqublunun Şəki Apelyasiya Məhkəməsinin qərarından kasasiya şikayətinə baxılıb. Məhkəməyə İ.Məmmədovun özü gətirilməsə də REAL-çılar, bəzi müxalif partiya rəhbərləri və jurnalistlər zala buraxıldılar. Həmçinin bir müddət öncə əfv fərmanı ilə azadlığa buraxılan Tofiq Yaqublu da məhkəmə zalında idi.**

Hakim Əli Seyfəliyevin sədrliyi ilə keçirilən prosesdə kasasiya şikayəti təmin olunmadı və aşağı instansiya məhkəməsinin qərarı qüvvədə saxlanıldı.

Prosesdən sonra jurnalistlərə açıqlama verən İ.Məmmədovun vəkili Fuad Ağayev bildirdi ki, qəbul olunmuş məhkəmə qərarları Azərbaycanın ədalət sisteminin göstəricisidir: "Açıq-aşkar ortada olan obyektiv sübutlara qiymət vermək istəməyən, yaxud da tərsinə qiymət verən hakimlərə, məhkəmələrə hansı sözüm ola bilər? Ona görə də biz məcburuq yenə də üzümüzü beynəlxalq qurumlara tutaq".

REAL Hərəkatının rəhbərlərindən olan Azər Qasımlı isə söyləyib ki, onsuz da məhkəmədən ədalətli qərar gözləmirdilər.

**Müsavat Partiyasının başqan müavini Tofiq Yaqublu bildirib ki, qərar tam siyasidir:** "Ola bilsin ki, ölkə rəhbərliyinə yanlış məlumatlar verirlər və buna görə də qərar verilir ki, İlqar Məmmədovu həbsdə saxlayın. İlqar bəydən başqa 4 nəfər də bu iş üzrə məhbəs həyatı yaşayır. O da yerli hakimiyyət orqanları ilə problemi olan şəxslərdir. Bundan istifadə edib, onları həbsə salıblar. Bir yol qalıb, o da Avropa İnsan Haqları Məhkəməsinə müraciət etmək".



**İlqar Məmmədovun həyat yoldaşı Vəfa Məmmədova isə bildirib ki, İlqar bəyin özünün bu gün azadlığa çıxacağına ümidi yox idi:** "İlqarla 2 gün öncə telefonla danışdım. Özünün ümidi yox idi və bilirdi ki, xeyirli bir qərar çıxmayacaq. Mən də məhkəməyə çox az ümidlə gəlmişdim. Ümidimiz sadəcə Avropa Məhkəməsinə qalıb. Düzünü deyim ki, məhkəmədən hələ daha pis qərar çıxacağından qorxurduq. Yaxşı ki, Azərbaycandakı məhkəmələrdən canımız qurtardı".

Qeyd edək ki, İ.Məmmədov və T.Yaqublu 2013-cü il yanvar ayının 24-də İsmayıllıda baş vermiş kütləvi iğtişaşların təşkilində ittiham olunublar. Şəki Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə İ.Məmmədov 7 il, T.Yaqublu isə 5 il müddətinə azadlıqdan məhrum ediliblər.

Hökmdən narazı qalan təqsirləndirilən şəxslər apelyasiya şikayəti ilə Şəki Apelyasiya Məhkəməsinə müraciət ediblər. Məhkəmə onların apelyasiya şikayətlərini təmin etməyib. Bundan sonra İ.Məmmədov və T.Yaqublu kasasiya şikayəti veriblər. Ali Məhkəmə kasasiya şikayətinə baxaraq işi təkrar baxılması üçün Şəki Apelyasiya Məhkəməsinə göndərib.

Şəki Apelyasiya Məhkəməsi yenidən birinci instansiya məhkəməsinin qərarını qüvvədə saxlayıb. İ.Məmmədov həmin qərardan kasasiya şikayəti verib. Xatırladaq ki, T.Yaqublu bu ilin martında verilən əfv sərəncamı ilə azad olunub.

❑ Əli RAİS

# Meydan hərəkatının liderlərinin "agent" qalmaqalı bitmir

## Nemət Pənahlının hansı ifadəsinə görə Ənvər Əliyev həbs edilib; "Onun üstünə hücum çəkib dedim ki..."

**17 noyabr Milli Dirçəliş Günü ilə bağlı meydan hərəkatının liderlərindən olan Ənvər Əliyev "Yeni Müsavat"a verdiyi müsahibədə ciddi ittihamlar səsləndirib. Ə.Əliyev meydan hərəkatının lideri olduğunu bildirərək, o zamankı liderlərin hamısının sovet hakimiyyəti ilə əlaqələrinin olduğunu deyib. Bundan əlavə, o qeyd edib ki, 28 il öncənin məlum hadisələri ilə bağlı həbs edilərkən, meydan hərəkatında iştirak edənlərin hamısı onun üzünə durub və hadisələri onun təşkil etdiyini deyiblər.**



Ə.Əliyevin əsas ittihamları meydan hərəkatının digər öncül isimlərindən biri olan Nemət Pənahlı ilə bağlı olub. O, N.Pənahlının 13 dəfə meydan hərəkatı dövründə Azərbaycana rəhbərlik etmiş Əbdürrəhman Vəzirovla görüşdüyünü və onun təşəbbüsü ilə meydanda yığılan milyonlarla pulun taleyinin necə olduğunu bilmədiyini qeyd edib.

**Barəsindəki ittihamlarla bağlı qəzetimizə açıqlamasında N.Pənahlı sərt danışdı:** "Onun nə deməsinin əhəmiyyəti yoxdur. O dövrdə mitinqlərin ilk iki gününü həqiqətən də hakimiyyət təşkil etmişdi və onun da təşkilatçısı Ənvər Əliyev idi. O, Fətulla Hüseynov və Fuad Musayevin tapşırıqlarını icra edirdi. Ona görə çalışdıq ki, mitinqləri dağıdaq. 17 noyabr mitinqi yeganə mitinqdir ki, onun təşkilatçılığında iştirak etməmişəm. Hakimiyyət nümayəndələrinin heç bir müdaviməti olmadan meydana gəlmişik. Ənvər Əliyev o zaman çıxış etdi ki, şəhər rəhbərliyi ilə danışmışıq oturaq aksiya keçirək, yemək, paltar veriləcək, kişilikləri çatsa pulsuz verəcəklər, çatmasa pul yığıb özümüz alacağıq. Onun bu çıxışlarından şübhələndik. Həmin vaxt Sumqayıt hadisələri baş vermişdi. Planlar qururdu ki, bu hərəkatı qan içində beşiyindəcə boğsunlar. Ona görə də Məhəmməd Hatəmi və mən 17-18 noyabrda qərara gəldik ki, dağılışaq və bir həftədən sonra yenidən toplaşaq. Onların məqsədini öyrənmək istəyirdik. 18-dən 19-na keçən gecə gördüm Ənvər Əliyev Fətulla Hüseynov və Fuad Musayevin qarşısında hesabat verir ki, təhlükə getdikcə artır, insanlar sel kimidir. Tələb edirdi ki, onu 360 manat cərimə etsinlər və bu yolla məsuliyyətdən azad olsun. Amma onlar da Ənvər Əliyevə təkid edirdilər ki, bu mitinqi apar, heç yerə qaça bilməzsən. Bunları görəndən sonra onun üstünə hücum çəkib dedim ki, xalqı hakimiyyətin əli ilə bura yığıb, indi də aradan çıxmaq istəyirsən, sonra da xalq qırılsın?! Ondan sonra mən onu meydandan qovdum, təşəbbüsü ələ aldım. 22 noyabrdan 23-nə keçən gecə bəyan etdim ki, bura milli azadlıq hərəkatıdır".

**N.Pənahlı Ə.Əliyevin həbsinə səbəb olan ifadəsindən də söz açdı:** "Sonradan biz həbs edildik. Guya mafiya axtarırdılar. Mən o zaman bildirdim ki, nə mafiya axtarırsız, mafiya mənəm, yoxsa Hatəmidir? Onu da bildirdim ki, Azərbaycandakı sovet rəhbərliyi belə bir hadisə təşkil etdi ki, Sumqayıt hadisələrinə bənzər hadisə törətsin. Biz də buna imkan vermədik və qarşısını aldıq. Onda Ənvər Əliyevin çıxışından sitat gətirdim, onun konkret üç mitinqi apardığını və sizə dediklərimi istintaqda da dedim. Söylədim ki, bu şəxs deyib ki, Bakı şəhər rəhbərliyi ilə danışıqlar aparılıb və sizlərə yemək, paltar veriləcək. O zaman da Bakı şəhərində rəhbər Fuad Musayev və Fətulla Hüseynov idi. Məlum oldu ki, Ənvər Əliyevin meydandakı çıxışlarının hamısı yazılıb, videoçəkilişlər olub. Bizim mafiya onun çıxışını həmin yerdən çıxarıb. Mən bilmədən bu sözü deyəndə onlar tələb etdilər ki, bu çıxış hardadır. Çıxış isə əsas yerdən yoxa çıxarılmışdı. Mənim istintaqdakı bu ifadəmdən sonra həqiqətən onu həbs elədilər. O bizdən 3-4 ay sonra həbs edildi. Açığı, bilsəydim ki, mənim bu sözlərimə görə onu həbs edərlər, heç vaxt bunları deməzdim. O zamandan o mənə qarşı düşmənçilik edir. Onun dediyi 17 noyabr mitinqində təşkilatçı olması ilə bağlı fikirlər tamamilə doğrudur. Biz, sadəcə, dövlətin təşkil etdiyi mitinqi ələ keçirmişik, Ənvər kimi tipləri meydandan qovmuşuq, ondan sonra da prosesləri milli azadlıq hərəkatına çevirmişik. Pul yığmaq təxribatını da o ortaya atıb. Hətta 3-4 gün təbliğat aparmışam ki, bura pul gətirməyin. Bunun qarşısını ala bilməyəndən sonra inandığım şəxslərdən olan Rəsul adlı birisini bu işə cəlb etdim. Yığılan pulların qəpiyinə qədər hesabat vermişəm. KQB-nin o zamanlar nə qədər pul yığdığını dəqiq bilmirəm. Amma KQB və bizim təxmini hesablarımıza görə, orada 10 milyona yaxın pul yığılıb. Sonradan türmədə olarkən öyrəndim ki, həmin pulları Rəsuldan qapazlayıb alıblar. O puldan 130 min Rəsul KQB-yə verdi. Həbsxanadan çıxandan sonra cəmi oradan mənə 3 min manat pul verildi, onun da son qəpiyinə qədər hesab vermişəm".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 257 (6578) 19 noyabr 2016

**Bir neçə gündür ki, vətəndaşların, xüsusən də iş adamlarının banklardan və valyutadəyişmə məntəqələrindən dollar ala bilməməsi medianın əsas müzakirə mövzusudur. Bəs görəsən, bu sahədə real vəziyyət necədir? Bankların dollar satmamasının səbəbi nədir?**



# Banklar vətəndaşları aldadır - dolları alıb niyə satmırlar?

## Şikayətçi: "Məzənnə lövhəsindəki fırıldaqlarla bizi cəlb edirlər, amma..."

Suallara cavab almaq üçün paytaxtdakı valyutadəyişmə məntəqələrinə və banklara baş çəkdik, müşahidə apardıq. Məlumdur ki, artıq paytaxtın mərkəzində əksər "Exchange"lərin fəaliyyəti bərpa olunub. Lakin bunun valyuta bazarındakı problemlərin həlli baxımından heç bir faydası yoxdur. Onların fəaliyyəti tam leqal şəkildə həyata keçirilmir. Hətta məntəqələrin önündəki məzənnə lövhələrində alış-satış məzənnəsi belə yazılmayıb.

"Neftçilər" metro stansiyası ətrafında yerləşən valyutadəyişmə məntəqələrində müşahidə apardığımız müddətdə məntəqələrdə dollara tələbatın yüksək olduğunun şahidi olduq. Lakin dollar almağa gələnlər kor-peşman geri qayıdırdılar. Hətta hansı səbəbdən dolayı dollar satmadıqlarına görə valyutadəyişmə məntəqələrində çalışanlarla müştərilər arasında mübahisələr də yaşanırdı. Valyutadəyişmə məntəqəsində də çalışan şəxslə həmsöhbət olduq. Bildirdi ki, onlar fəaliyyətə başlasalar da, dolların satışı yox, yalnız alışı həyata keçirilir.

Banklarda isə vəziyyət daha acınacaqlıdır. "Xalq bank," "Ekspress" Bank kimi iri banklarda dollar satışı birmənalı olaraq dayandırılıb. Banklarda olduğumuz zaman onlarla insanın dollar almaq üçün müraciət etdiyinin şahidi olduq. Lakin hamı "yoxdur" sözünü eşidib, geri qayıdırdı.

Onu da qeyd edək ki, bankların bu formada fəaliyyət göstərməsi, dollar alıb-satmaması əhalinin banklardan narazılığını daha da artırıb. Hətta tez-tez müştərilərlə bank işçiləri arasında yaşanan mübahisələrin şahidi olurduq.

**Problemini musavat.com-un əməkdaşına danışan müştəri bildirdi ki, banklar həm hökuməti və həm də vətəndaşları aldadır:** "Hansı banka gedirsən, tabloda alış-satış məzənnəsi göstərilib. İçəri daxil olan zaman isə "dollar satmırıq" deyirlər. Bu nə deməkdir? Vətəndaşları niyə ələ salırlar? Niyə hökumət bu durumu nəzarətə götürmür? Əgər dollar satmırsansa, tablodakı satış məzənnəsini nə üçün sıfırlamırsan? Hökumət tərəfindən də banklara göstəriş verildi ki, dollar yığmayın. Təəssüf ki, bunlara xeyri olmadı. Görünür, bank sahiblərinin öhdəsindən gələ bilmirlər. Onlara şərait yaradılır ki, dollar yığsınlar altlarına..."

Bayırda valyuta məzənnələrini göstərən lövhəsi aktiv olan, lakin dollar satmayan banklardan bunun səbəblərini soruşduq. Bank əməkdaşları bildirdilər ki, satış olmasa belə, tablodakı məzənnənin olması zəruridir. Onlardan nə üçün bu yolla vətəndaşların aldadılmasını soruşduqda, sualımız cavabsız qaldı.



Əlavə edək ki, Azərbaycanda ən çox istifadə olunan xarici valyuta məhz dollardır. Həm idxal-ixrac əməliyyatları ilə məşğul olan iş adamları, həm xaricə getmək istəyən vətəndaşlar dollar almağa məcburdurlar. Bankların və "Exchange"lərin dollar satmaqdan imtina etməsi isə avtomatik olaraq qara bazarı formalaşdırır. Nəticədə banklar dolları qara bazarda daha baha satmağa nail olurlar. Ekspertlər də güman edir ki, dollar qıtlığının yaranmasının və bankların dollar satışından imtina etməsinin başlıca səbəbi budur. Təəssüf ki, bu duruma hökumət tərəfindən də müdaxilə olunmur. Bütün bu baş verənlər isə son nəticədə manatın dollar qarşısında dəyər itirməsi ilə nəticələnir.

**❑ Məğrur MƏRD**
**Fotolar müəllifindir**

# Hakimiyyətin QHT siyasətində yumşalma

## Bank hesabı bağlanan QHT-lərin hesabları açılıb, qeydiyyata alınma prosesi davam edir

**Son bir neçə ildə Azərbaycanda hakimiyyətlə vətəndaş cəmiyyəti institutları arasında ciddi problemlər hökm sürürdü. Hökumətin QHT siyasətində sərtləşmə müşahidə edilirdi, çoxlu sayda QHT-lərin bank hesabları bağladılmış, donor təşkilatları ilə müqavilələrinin qeydə alınması dayandırılmış, bəzi QHT rəhbərləri isə həbs edilmişdi.**


Vüqar Bayramov

Son vaxtlar isə hakimiyyətin QHT siyasətində bir yumşalma hiss olunmaqdadır.

Bu barədə "Yeni Müsavat"a danışan İqtisadi və Sosial İnkişaf Mərkəzinin İdarə Heyətinin sədri Vüqar Bayramov bildirdi ki, bu proses əslində 2015-ci ilin payızından başlanıb. 2014-cü ilin ortalarından başlayaraq 2015-ci ilin payızınadək bir çox QHT-lər üçün hətta bank əməliyyatları aparmaq belə, kifayət qədər çətin olub: "Bizim mərkəzin də bank əməliyyatları aparmasında çətinliklər olub, hesablarımız bağlanmışdı. Nəticədə 2014-cü ilin avqust ayından 2015-ci ilin noyabr ayınadək faktiki olaraq fəaliyyətimizi könüllü davam etdirmək məcburiyyətində qaldıq. Amma 2015-ci ilin oktyabr ayının ikinci yarısından başlayaraq QHT-lərin bank hesablarına çıxışları ilə bağlı, o cümlədən əvvəllər müqavilə bağlanmış layihələrin qeydiyyatı məsələsi ilə bağlı problemlər həll olunmağa başlandı. Nəticə etibarilə bu bizə imkan verdi ki, fəaliyyətimizi 2015-ci il noyabrın 1-dən başlayaraq yenidən bərpa edə bilək. Həmin dövrdən sonra bizim əvvəllər imzalanmış digər layihələrimizin də qeydiyyata nail olmaq mümkün oldu. Yalnız bizim təşkilatın deyil, digər təşkilatların da bank hesablarının açılması, QHT-lərlə bağlı başlanmış cinayət işlərinin dayandırılması müşahidə olunub ki, bu da müsbət haldır".

**V.Bayramov qeyd etdi ki, son bir ayda hökumət tərəfindən QHT-lərlə bağlı daha çox yumşalmalar müşahidə edilir:** "İndiyə qədər dövlət qeydiyyatından keçə bilməyən, qeydiyyatsız fəaliyyət göstərən QHT-lərin böyük əksəriyyəti qeydiyyata alındı. Sözsüz ki, indiki məqamda bizim üçün əsas vacib məqam xarici donorlarla, beynəlxalq təşkilatlarla bağlanmış müqavilələrin qeydiyyatı məsələsidir. Biz müstəqil QHT-yik, İqtisadi və Sosial İnkişaf Mərkəzi qlobal reytinqdə artıq xeyli vaxtdır ki, Cənubi Qafqazın və Orta Asiyanın ən güclü beyin Mərkəzidir. Bizim üçün müstəqilliyi qoruyub saxlamaq olduqca vacibdir. Müstəqillik fəaliyyəti isə təbii ki, digər beynəlxalq təşkilatlardan asılıdır, onlarla birgə həyata keçirilən layihələrdən asılıdır. Avropa Birliyinin, ABŞ-ın dövlət donorları ilə bağlanmış müqavilələrin daha qısa zamanda qeydiyyata alınmasına ehtiyac var. Son dövrlərdə praktik olaraq çox ciddi şəkildə hökumət tərəfindən QHT sektoru ilə bağlı yumşaldıcı və təşviqedici addımlar atılır. Bu addımların davam etdirilməsinə ehtiyac var. Bu addımlar içərisində bir pəncərə sistemi daxilində QHT-lərin və beyin mərkəzlərinin beynəlxalq təşkilatlarının yenidən bərpa edilməsidir. Bir pəncərə sistemi beynəlxalq donorlarla əməkdaşlığa imkan verəcəksə, o zaman QHT-lər yenidən öz fəaliyyətlərini tam şəkildə bərpa etmək imkanı qazanacaqlar. Yumşaldıcı addımlardan biri də bu yaxınlarda Açıq Hökumətin Təşkilinə dair Hökumət-Vətəndaş Platforması yaradılmalıdır. Bu da dialoq baxımından çox vacibdir".

Tanınmış QHT rəhbəri Səidə Qocamanlı isə bildirdi ki, hökumətin QHT siyasətində əvvəlki illərlə müqayisədə son dövrlər qismən yumşalma var. Bu proses müsbətə doğru daha çox inkişaf etdirilsə yaxşı olar.

**❑ Etibar SEYİDAĞA**

# Koreya dili Azərbaycan, türk dilləri ilə qohumdur?

## Şəkər Orucova: "Bu, hələ ki elmi əsaslarla təsdiqlənməyib"

**Cənubi Koreyanın Azərbaycandakı səfiri Kim Çanq-Gyu "Yeni Müsavat"a verdiyi müsahibəsində maraqlı bir faktı qeyd edib. O bildirib ki, azərbaycanlılarla koreyalılar arasında dil qohumluğu və mədəni oxşarlıqlar var. Qeyd edək ki, bu mövzuda dəfələrlə Türkiyə mətbuatında da araşdırma yazılar dərc olunub.**



## Firudin Cəlilov: "Türklərin heç kimlə qohumluqları yoxdur"

Türkiyəli alimlərinin fikrincə, Koreya dili "Altay dilləri" (türk, moğol, tunquz dilləri) arasında kifayət qədər bənzərliklər var. Bu barədə ilk yazılar isə tanınmış rus alimi E.D.Polivanovun qələmindən çıxıb. Böyük Fin alimi Ramsdet də öz yazılarında xüsusi əsaslarla "Altay dilləri" ilə Koreya dili arasında bir qohumluq əlaqəsi olmasını sübut etməyə çalışmışdı. Lakin onun əsasları bir çox məşhur alimlər tərəfindən tənqid edilib, bu barədə heç bir dəqiq faktlar olmadığını vurğulayıblar. Bildirilib ki, Koreya dili haqqında yetərincə elmi araşdırmalar olmadığından bu cür fikir yeritmək doğru deyil.

Bəs görəsən, Koreya və Azərbaycan dilləri arasında hər hansı bir qohumluq varmı?

**Tanınmış türkoloq Firudin Cəlilov mövzuya bu cür aydınlıq gətirdi:**

"Koreya "Altay dilləri"ndən deyil. Ümumilikdə isə Turan dillərinə Koreya, Yaponiya, türklər və s. xalqların dilləri daxildir. Bu da dillərin quruluşu ilə bağlıdır, yəni iqtisadiyyat dil quruluşu olduğuna görədir. Amma türklərin heç kimlə qohumluqları yoxdur. Türk dillərinin özləri ayrıca bir ailədir. Yəni yanlış olaraq dilləri əvvəl "Ural-Altay qrupları"na aid edirdilər, sonra gördülər ki, özünü doğrultmadı, indi də "Altay qrupu"na aid edirlər, tunquz-mancurları da türklərə calayırlar. Bu, kökündən yanlışdır. Onlar genetik qohum deyillər, sadəcə, burdan ora köçən türklərlə yerli xalqların - monqolların mancurların əlaqəsi olub. Buna görə də onların dillərində türk sözləri var. Bu da alimləri çaşdırır, onların qohum olduqlarını düşünürlər. Təbii ki, Hun dövründə türklər Monqolustana, Uzaq Şərqə getmişdilər. Şimali Koreyada Koqoson deyilən bir mədəniyyət var, türklər o mədəniyyətin, dövlətin qurulmasında yaxından köməklik ediblər. Ona görə də Koreya dilində, etnoqrafiyasında, mifologiyasında çoxlu türk sözləri, adətləri var. Məsələn, məşhur adamları dəfn edəndə üzərində kurqan qurulması Koreyada da var. Bu Azərbaycandan ora aparılmış rast gəlinən adətlərdir. Hətta Hun çağında böyük bir tayfa Koreyaya gedib çıxıb, orada yerli xalqla qaynayıb-qarışıbdır. Bu cür hallar Yaponiyada da olub və buna görə də onların dilində xeyli türk sözləri var, adətlərində türk nəfəsi duyulur. Amma dil baxımından, soy-kök baxımından bunlar bir ailədən törəməyiblər. Bu sonrakı əlaqələrin nəticəsidir. Məsələn, necə ki, ermənilərin dilində 30 faiz türk sözü var, bu o demək deyil ki, ermənilər türkdür. Sadəcə, qonşuluq nəticəsində erməni dilinə keçib. Eləcə də rusların dilində xeyli sayda türk sözləri var".

AMEA Dilçilik İnstitutunun əməkdaşı Şəkər Orucova isə qeyd etdi ki, bu məsələ elmi əsaslarla hələ ki təsdiqlənməyib. Bunu deməkdən bir söz demək mümkün deyil.

**❑ Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 257 (6578) 19 noyabr 2016

# Komitə sədri boşanmaların səbəblərini açıqlayıb

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Azərbaycanda qeydə alınan boşanmaların səbəblərindən danışıb. APA-nın xəbərinə görə, Hicran Hüseynova bildirib ki, bunun bir çox səbəbi var. Ən vacib problem kimi qızların ailə qurmağa fiziki, psixoloji cəhətdən hazır olmadığını deyən komitə sədrinin fikrincə, bunların nəticəsində problemlər yaranır.

Onun sözlərinə görə, son dövrlər bölgələrdə qadınların sahibkarlıq fəaliyyətinin təşviqi istiqamətində tədbirlər görülür: "Müşahidələr göstərir ki, qadının iqtisadi baxımdan müstəqil və güclü olduğu ailələrdə normal mühit yaranır. Həmin qadın maddi cəhətdən ailəsinə kömək edə bilir. Belə ailələrdə sağlam düşüncəli uşaqlar böyüyürlər. Təhsilli qadın hər zaman çalışacaq ki, uşaqları təhsil alsın, irəli getsin. Təəssüf ki, bu gün cəmiyyətimizdə problemli ailələr də var, məqsədimiz onlarla işləməkdir".

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Siyəzənə getmək istəyən gənc "Şamaxinka"da bıçaqlandı

**Bakıdan Siyəzən rayonuna getmək üçün taksi axtaran şəxs naməlum şəxslər tərəfindən bıçaqlanıb. Hadisə Nəsimi rayonunda "Şamaxinka" kimi tanınan ərazidə baş verib.**

Belə ki, 27 yaşlı Fərid Tahir oğlu Yusifova iki nəfər naməlum şəxs yaxınlaşaraq ondan pul istəyiblər.

Cibində rayona getmək üçün müəyyən məbləğdə pulu olduğunu deyən F.Yusifovla həmin şəxslər arasında mübahisə düşüb. Nəticədə onlar F.Yusifova iki bıçaq zərbəsi vuraraq ərazini tərk ediblər.

Faktla bağlı Nəsimi Rayon Polis İdarəsində cinayət işi başlanılıb, araşdırma aparılır. ("Report")

## Yasa gedən ailənin evi yarıldı

**ARB Kəpəz xəbər verir ki, dünən gecə saatlarında Goranboyda oğurluq hadisəsi baş verib. Rayonun Xoylu kəndində Sənan Allahverdiyev ailə üzvləri ilə birgə qohumlarının yas mərasiminə gedib. Qayıtdıqda isə evə "çağırılmamış qonaqlar"ın girdiyini görüb.**

Hələ ki adı istintaqa məlum olmayan şəxs və ya şəxslər evdən 9 min manat pul və qızıl-zinət əşyaları götürüblər.

Hadisə ilə bağlı Goranboy Rayon Polis Şöbəsinə məlumat verilib.

Hazırda oğurluq hadisəsini törədənlərin tapılaraq istintaqa cəlb olunması istiqamətində əməliyyat-axtarış tədbirləri aparılır.

## "06" piyadanı vurub xəstəxanalıq etdi

**Hadisə Zaqatala rayonunun Əliabad qəsəbəsində baş verib. ARB Şəki xəbər verir ki, 24 yaşlı Əliabad qəsəbə sakini Tural Sadəddin oğlu Həsrətov idarə etdiyi "VAZ 2106" markalı 10 EJ 985 dövlət nömrə nişanlı avtomobillə rayonun Əliabad-Mosul yolunda hərəkətdə olarkən yolun kənarı ilə gedən piyada, rayonun Əliabad qəsəbə sakini 54 yaşlı Musa Bulad oğlu Hacımuradovu vurub.**

Qəzadan sonra müxtəlif dərəcəli bədən xəsarəti alan Musa Hacımuradov Zaqatala Rayon Mərkəzi Xəstəxanasına aparılıb.

Ona lazımi tibbi yardım göstərildikdən sonra müayinə və müalicəsini davam etdirmək üçün Bakı şəhərindəki xəstəxanalardan birinə göndərilib.

Faktla bağlı Zaqatala RPŞ-də araşdırma aparılır.

## Yağış yağacaq, külək əsəcək

**Bakıda və Abşeron yarımadasında sabah hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Bəzi yerlərdə çiskinli yağış yağacağı, gündüz fasilə olacağı ehtimalı var. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, arabir güclənən şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 6-8° isti, gündüz 9-11° isti, Bakıda gecə 6-8° isti, gündüz 9-11° isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz, səhər bəzi yerlərdə duman, çiskin olacaq. Lakin axşam arabir yağış, dağlıq və dağətəyi rayonlarda sulu qar, qar yağacağı gözlənilir. Lənkəran-Astara zonasında intensiv olacağı ehtimalı var.

Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 3-7° isti, gündüz 8-12° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 0-5° isti olacağı gözlənilir.




## "ASAN VISA"nın tətbiqinə gələn aydan başlanılacaq

**"Gələn aydan etibarən "ASAN VISA" xidmətinin tətbiqinə başlamaq olar". Bunu "Report"a açıqlamasında ASAN İnnovasiyalar Mərkəzinin direktoru Kamran Ağası deyib.**

Onun sözlərinə görə, xidmətin tətbiqinə başlanılmasından sonra viza müraciətlərinə üç gün ərzində baxılacaq: "Hazırda "ASAN VISA" ilə bağlı işlər davam etdirilir və əgər alınsa, bu ayın sonu, maksimum növbəti ay ASAN VISA" xidmətinin göstərilməsinə başlanılacaq. Müraciətlərə üç gün ərzində baxılacaq. Yeri gəlmişkən, gələn ildən "ASAN VISA" portalı fəaliyyətə başlayacaq".

O, həmçinin "ASAN qatar" layihəsinin reallaşdırılması haqqında da danışıb: "Bu layihə ilə də bağlı işlər davam etdirilir. Düşünürəm ki, "Asan qatar" layihəsi dünyada analoqu olmayan layihədir. Layihənin icrası zamanı ölkədaxili istiqamətlər üzrə hərəkət edən sərnişin qatarlarının bir neçə gün dayandığı stansiyalarda sərnişinlərə bütün dövlət xidmətləri göstəriləcək".

## Azərbaycanda elektrobus istehsal olunacaq

**Gəncə Avtomobil Zavodunda 2017-ci ilin yanvarından "Eurabus" elektrik avtobuslarının yığılmasına başlanılacaq. Bu sözləri dünən «Trend»ə "Gəncə Avtomobil Zavodu" İB-nin müşahidə şurasının sədri Xanlar Fətiyev deyib.**

Onun sözlərinə görə, zavodun ilkin istehsalat gücü ildə 350-400 avtobus olaraq planlaşdırılıb.

Almaniyanın "Eurabus" şirkətinin baş direktoru «Kristian Zayts» iki şirkət arasında müqavilənin yaxın iki ay ərzində imzalanacağını deyib.

O, artıq ilk elektrobusun test sınağından keçirildiyini də bildirib. Gəncədə yığılacaq elektrobusların xarici ölkələrə, xüsusilə Gürcüstana ixrac olunması da planlaşdırılır.

## Azərbaycanda əhalinin 100 000-dən 1002-si psixi xəstəliklərdən əziyyət çəkir

**Azərbaycanda müalicə-profilaktika müəssisələrində 96 079 nəfər psixi xəstəlikdən əziyyət çəkən insan qeydiyyatdadır.**

"Report" Dövlət Statistika Komitəsinə istinadən xəbər verir ki, bu göstəriciyə görə əhalinin hər 100 000 nəfərindən 1002,3 nəfəri psixi xəstəliklərdən əziyyət çəkir.

Qeyd edək ki, ötən il ərzində ölkədə ilk dəfə qoyulan diaqnozla psixi xəstə kimi qeydə alınanların sayı 5107 nəfər olub. Bu da əhalinin hər 100 mininə 53,6 nəfər edir.

DİQQƏT! 2011-ci ildən bütün Beynəlxalq Bal Sərgilərinin qalibi "Darı Tyan Şana" (Qırğızıstan) şirkətinin bal və müalicəvi bal məhsulları Bakıda!

*Atbaşı balı (Ağ bal)*
*Esparset balı (monoflor)*
*İssık kul balı*
*Karkıra balı*
*Uzqen balı*
*Mumiya*
*Oqnyovka pçelinaya*
*Propolis məcunu və s.*

Şirkətin məhsulları yarmarka və bazarlarda satılmır.
Məhsulları bu ünvandan ala bilərsiniz:
Neftçi Qurban küçəsi-119. (Bayıl Doğum evinin yanı)
**Əlaqə telefonu: (012) 49123-82; (051) 922-15-71**

## Təbib Darya xanım

Onurğa yırtığı, osteoxandroz, sağalmaz yaralar, yanıqlar, uzun müddət yataqdan sonra əmələ gələn yaralar, diabetdə trafik xoralar, varikoz genişlənmələr, qadın sonsuzluğunun zəli ilə müalicəsi və digər xəstəlikləri cərrahi müdaxiləsiz, xüsusi məlhəmlərlə və xüsusi metodika ilə inyeksiyalarla müalicə edirəm.

**Tel: 070-888-91-50**

YENİ MÜSAVAT
N 257 (6578) 19 noyabr 2016

**"Mən "inkubator cücəsiyəm", heç kimim yoxdur (kədərlə gülümsəyir). Atam, anam, iki qardaşım, bacım həmısı rəhmətə getdi. Allah məni niyə hələ də saxlayıb, bilmirəm". Bizi gülə-gülə, zarafatla qarşılayan 70 yaşlı Brilyant Koroğluyevadan bu sözləri eşidəcəyimizi, açığı, gözləmirdik.**

# Kimsəsizlərin, atılmışların son ümidgahı - qocalar evi

Əməkdaşımız Bilgəhdəki sığınacaqdan və onun müvəqqəti sakinlərinin taleyindən yazır...

Bilgəh Qocalar Evinin sakini olan həmsöhbətimiz ömrünün ahıl çağlarında taleyinin ona dönük çıxmasından danışır: **"Evimiz hər zaman adamla qaynayırdı. O qədər çox idik ki, adam arxasından adam görünmürdü. Lakin bir neçə ilin içində hamısı bir-bir öldü. Bu - dəhşətli möcüzə idi. Anamla bacımın dünyadan köçməsinin arası cəmi 3 ay çəkdi. Ən qəribəsi isə odur ki, bizim ailəmizdə hamı anadan olduğu gündə dünyadan getdi. Sonra evim əlimdən çıxdı, küçələrdə qaldım. Hadisələr 10 il öncə baş verib. Başıma çox fəlakətlər gəldi. Nəticədə 3 il öncə buraya sığındım".**

Dediyinə görə, həyat yoldaşı imkanlı şəxs olub: **"Məni əlinin içində saxlayırdı. Evimi ən yeni dəblə döşəmişdim, yeni çıxan nə var idisə, birinci bizim evdə olmalı idi. Qonşular gəlib mənim evimə muzey kimi baxırdılar. İndi isə qocalar evindəyəm... Evim üçün çox darıxıram. Orada çox gözəl günlərim olub. Kim inanar buna?.."**

***

Beləcə, kimsəsizlərin, yaxınlarından, övladlarından və həyatdan küsənlərin, taleyin sovurub küçəyə atdığı insanların sığınacaq yerində - Bilgəh Qocalar Evindəyik. "Yeni Müsavat"ın reportyor qrupu olaraq bu dəfə yolumuzu Bilgəh qəsəbəsində yerləşən Müharibə və əmək əlilləri pansionatından salmışıq. Müəssisənin adı belə olsa da, burada əsasən qocalar yaşayır, o səbəbdən də "Qocalar Evi" kimi tanınır. Hər birini buraya gətirən səbəblər fərqlidir. Bəziləri kövrək, bəziləri qürurlu, bəziləri isə hələ də övladlarının tərəfini verməyən insanlardır. Kimi ürəyindən keçəni danışır, kimi isə müqəddəs yalan... Bəziləri inandırıcı görünmədiyini bilsə də, evdəki səs-küydən qaçıb burada sakitlik tapmağa çalışdığını deyir. Dindirib danışdıran kimi, hamısının gözü dolur, dodaqları əsir. Qocalar evində yaşadıqları vəziyyətdən razı qalsalar da, yaxınlarının, doğmalarının və talelərinin onlara dönük çıxmasını qəbul edə bilmirlər...

**81 yaşlı Tahirə Şıxəliyeva isə sakit və dinc həyat sürmək üçün buraya yerləşdiyini deyir:** "Mən kimsəsiz deyiləm, övladlarım da, nəvələrim də var, gəlib-gedirlər. Sadəcə, evdə şərait normal deyil. Buraya sakitlik üçün gəlmişəm. Uzun illər dövlətə xidmət etmişəm, müəllimə olmuşam. İndi də dövlət məni saxlasın".

235 nəfər qocanın yaşadığı pansionat 3 korpusdan ibarətdir. İlk baxışdan müasir təmiri ilə göz oxşayan binanın içərisində də vəziyyət ürəkaçandır. Qocalar evini gəzərkən dəhlizdəki və otaqlardakı səliqə-səhmandan, yaradılan gözəllikdən elə başa düşdük ki, yenicə təmirdən çıxıb. Buranın sakinləri isə bildirdilər ki, pansionat 6 il öncə, 2010-cu ildə təmir olunub, lakin çox təmiz və səliqəli saxlanıldığı üçün belə təəssürat yaradır...

***

Qocalar evinin hər bir sakininin burada tam şəraitlə təchiz olunmuş özünə aid otağı var. Bütün otaqlarda standart olaraq eyni mebel qoyulub. Bu mebel dəstinə təkadamlıq yataq, şkaf, kiçik siyirməli şkaf, televizor altlığı, stol və iki stul daxildir. Həmçinin hər otaqda soyuducu və televizor var. Hamam və məişət qovşağı da otağın içində fərdidir. Eyni vaxtda 100-dən çox insanın nahar edə biləcəyi mətbəx isə birinci mərtəbədə yerləşir. Mətbəxin yanında 5 otaqdan ibarət anbar yerləşir və orada 235 nəfəri bir ay təmin edəcək hər cür ərzaq məhsulları xüsusi şəraitdə saxlanılır.

Bizimlə birgə anbarlara baş çəkən qocalar evinin müdiri Qətibə Əsədova deyir ki, digər müəssisələrdən fərqli olaraq burada heç bir yeyintidən söhbət gedə bilməz: **"Mən fəaliyyətimdə əsasən halallıq prinsipini rəhbər tutmuşam. Ona görə də, burada heç bir yeyinti faktı ola bilməz. 5 otaq anbarımız var. Burada tonlarla məhsul saxlanılır. Ətindən-yağından tutmuş, qəndinə çayına kimi, hər növ məhsulu dövlətdən alırıq. Gündə 3 dəfə qocaları keyfiyyətli qida ilə təmin edirik. Səhər yeməyində yağ, pendir, kəsmik, qaymaq, yumurta və sıyıq olur. Günorta iki növ yemək verilir. Axşam da ətli yemək hazırlanır. Fiziki imkanları məhdud olan qocaların otağına yeməklər verilir. Qalanlar isə gəlib mətbəxdə yeyirlər. Həmçinin hər mərtəbədə mətbəx var və buranın sakinləri ürəkləri istəyən ərzağı alıb özləri üçün yemək bişirə bilərlər".**

Qeyd edək ki, 235 qocadan 101 nəfəri kişi, 134 nəfəri isə qadındır. Onlar arasında burda evlənənlər də var. Qocaların asudə vaxtının təşkili üçün xüsusi otaqlar da mövcuddur. Orada müxtəlif oyunlar üçün nərd, domino, şahmat və sair qoyulub. Həmçinin hər otaqda bir televizor olduğu kimi bu otaqlarda da televizor var. Bəzi mərtəbələrdə kitabxanalar da var ki, qocalar istədikləri ədəbiyyatı oradan tapıb oxuya bilərlər. Burada güclü nizam-intizamın olmasının da şahidi olduq. Demək olar, heç bir otaqdan səs-küy eşidilmirdi.

***

Qocalar evinin sakinləri Qətibə Əsədovadan da razılıq edirlər. Onun hər bir qoca ilə səmimi davranışı, 200-dən çox insanın hər birinə adı ilə müraciət etməsi, səhhətləri ilə maraqlanması da diqqətimizdən qaçmır. Hətta bəzi qocaların Qətibə xanıma "mama" deyə səslənməsi də onların münasibətinin səmimiliyindən xəbər verirdi.

















Brilyant Koroğluyeva deyir ki, bəzən burada dövlət tərəfindən verilən paltarı bəyənməyən qadınlara Qətibə Əsədova özü daha gözəl paltar alır və ya öz əşyalarını bağışlayır. Bəzən isə onlara sürpriz edir, yeməkdən sonra aşpazlara müxtəlif şirniyyatlar bişirdirib paylayır. Həmçinin xüsusi istedadı olan insanlara burada özəl qayğı göstərilir. Onların yaradıcılıqla məşğul olması üçün şərait yaradılır.

Qətibə Əsədova isə bizimlə söhbətində bildirdi ki, kimsəsiz qocaların qayğısına qalmaq onun üçün müqəddəs bir missiyadır: **"Burada hamısı qəlbi qırılmış, taleyi gətirməmiş insanlardır. Kimisi gəlini ilə yola getmir, kimisi oğlundan küsüb, kimisinin də qohum-əqrəbası, heç kimi yoxdur. Burada elə yaşlı qadınlar var ki, 6 oğlu var, hamısı da normal dolanır, lakin heç biri valideyninə baxmır. Biz də çalışırıq ki, onlara bu dərdi unutdura bilək. Burda onlar nərd, şahmat, dama oynayırlar, birgə televizor izləyirlər, yığışıb çay içib söhbətləşirlər. Hamısı dövlətdən pensiya alır, onunla da istədikləri şeyləri alırlar. Digər tərəfdən, dövlət də yeməklə, geyimlə, müalicə və dərmanla təmin edir. Mən də özümü onların kiçiyi kimi görürəm. Bəziləri məndən 15-20 yaş böyükdür. Çalışıram ki, hər birinin istəklərini yerinə yetirim".**

Qətibə Əsədova ölkə başçısının, onun xanımı Mehriban Əliyevanın, əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun da Bilgəh Qocalar Evində olduğunu, prezidentin qızı Leyla Əliyevanın isə tez-tez bu qocalar evinə baş çəkərək qocalara qayğı göstərdiyini bildirdi. Müdirə müəssisənin albomunda Leyla Əliyevanın müxtəlif vaxtlarda qocalarla çəkdirdiyi fotoları bizə göstərdi. Qeyd etdi ki, bu qocalar evinə hökumətin dəstəyi və qayğısı böyükdür...

***

**Biz də qocalar evindəki bu vəziyyəti müşahidə etdikdən sonra oradan yüksək təəssüratla ayrıldıq. Ən son müəssisənin parklardan heç də geri qalmayan geniş həyətində ağac əkən qocalarla sağollaşdıq. Şən əhval-ruhiyyə ilə həyətdə ağac əkən qocalar bəlkə də sığındıqları bu isti ocaqda özlərindən sonra bir yadigar qoymağa, bu yolla minnətdarlıqlarını bildirməyə çalışırdılar.**

**❑ Nərgiz LİFTİYEVA**
**❑ Fotolar Məğrur MƏRDİNDİR**

YENİ MÜSAVAT
Son səhifə
N 257 (6578) 19 noyabr 2016



# 14 yaşlı uşaq bir ildə 2 milyon sterlinq qazandı

İngiltərədə 14 yaşındakı Harvey maşın sahiblərinə "vergi xatırlatması qəbzi" sataraq 100 min sterlinq qazanıb. Bu pulla 4 hektar ərazi alan gənc biznesmen bir inşaat şirkətinin 2 milyon sterlinqlik təklifini qəbul edib. Yaddaşsız sürücülərə vergi cəzası almamaları üçün vergilərini nə vaxt ödəmək lazım olduğu barədə sənədlər paylayan yeniyetmə birinci həftədə 400-ə yaxın sifariş alıb. Uşağın aldığı ərazi bir iş adamının aldığı ərazinin düz ortasında olduğu üçün onu satın almaq şərt olub və iş adamı buna görə həmin ərazi üçün 2 milyon sterlinq məbləğ təklif edib. İngiltərənin "The Sun" qəzetinə açıqlama verən uşağın atası Hovard Millinqton, "Şirkətlə danışığa gedəndə mənə nə qədər pul təklif edəcəklərini bilmirdim. Rədd edilməsi çətin oldu, çünki çox böyük məbləğ idi" dedi.

Uşağın atası ona işə başlaması üçün 2 min sterlinq məbləğində sərmayə verib. İngiltrənin "Daily Mail" qəzetinə müsahibə verən ata bildirib ki, oğluna həyatda uğur qazanmağı öyrədib: "Çox praqmatik bir uşaq və böyük bir iş adamıdır. Mən onun iş həyatında uğur qazanacağını kiçik yaşlarından fərq etmişdim".

# Uşağını doğdu, amma hələ də hamilədir



"Daily Mail" qəzetinin xəbərinə görə, Danielle Paull adlı qadın bətnindəki əkizlərdən birini 24 həftəlik ikən dünyaya gətirib. Digəri isə aradan 4 həftə keçməsinə baxmayaraq, hələ də doğulmayıb. Hələ hamilə olan qadın digər körpəsini dünyaya gətirmək üçün bir müddət daha gözləyəcək. Danielle hamiləliyinin 19-cu həftəsində sancılar yaşamağa başlayanda həkimlər ona əkizlərini fasiləli olaraq dünyaya gətirməyi məsləhət görüblər. Danielle və həyat yoldaşı Metyu onlarınkına bənzəyən başqa doğumların da olduğunu fərq ediblər. 5 həftə daha gözləyəndən sonra cütlüyün Sadie adlandırdıqları körpələri dünyaya gəlib. 710 qram olan körpəni yaşaya bilməsi üçün küvetin içinə qoyublar. Digər doğumu sürətləndirə biləcəyi üçün ana birinci doğulan uşağına süd verə bilmir. Uşaq süd bankından olan südlə qidalanır. Ailə ümid edir ki, əkizlərdən ikincisi 40-cı həftəsinin tamamında dünyaya gələcək.

# Cəsədini dondurmaq istəyən qız məhkəmədə atasını uddu



**Xərçəngin nadir növündən əziyyət çəkən 14 yaşlı britaniyalı məktəbli atasına qarşı açdığı məhkəmə iddiasını udub. Onun iddiası ölümündən qısa müddət öncə bədəninin dondurulması ilə bağlı idi. Məhkəmə məlum qərarı hələ oktyabr ayında çıxarmışdı. Amma bəzi hüquqi prosedurlarla bağlı onun elan edilməsi indiyə qalıb. Mərhum qızın anası ilk başda konservasiyanın əleyhinə deyildi.**

Amma Londonda yaşayan bioloji atası buna isti baxmırdı: "Hətta onun dondurulmuş bədənini 200 ildən sonra belə həyata qaytarmaq mümkün olsa belə, o, öz doğma qohumlarını tanıya bilməyəcək, 14 yaşına qədər nələr etdiyini xatırlamayacaq. Bundan başqa, ABŞ-da oyanmayacaq". Bunu 6 il əvvəl qızının anası ilə boşanan və ömrünün sonuna qədər qızı ilə maraqlanmayan atası deyib. Ömrünün son aylarında qız bu barədə çoxlu material oxuyub və inanıb ki, bədəninin dondurulması onun yüz illərdən sonra yenidən həyata qayıtmasına imkan verəcək: **"Torpağın altında saxlanmaq istəmirəm. Yaşamaq və daha çox yaşamaq istəyirəm. Gələcəkdə mənim xərçəngimdən nəsə qalıq tapılsa, məni oyadarlar. İstəyirəm ki, mənim belə bir şansım olsun".**

Qızın xeyrinə qərar çıxaran hakim Piter Cekson ölmək üzrə olan qıza xəstəxanada baş çəkib və onun əzminə heyran olduğunu bildirib. O, eyni zamanda hakimiyyətə də gələcəkdə bu problemin həlli üçün qanunvericilik bazası hazırlamağı tövsiyə edib.

Ümumiyyətlə, cəsədin dondurulması 46 min dollara başa gəlir. Bununla yanaşı, Britaniyada meyitin saxlanılması üçün müvafiq məkanlar yoxdur.

Adı açıqlanmayan qızın cəsədi artıq Amerikaya çatdırılıb. Bu ölkədə sözügedən prosedura həyata keçirən məkanlar var.




**QOÇ** - Çoxdan bəri nəzərdə tutduğunuz ideyaları nəhayət ki, həyata keçirməyi bacaracaqsınız. Amma bu istiqamətdə təkbaşına hansısa addımı atmayın. Qəlbinizə yaxın adamlarla bir araya gəlin.

**BUĞA** - Günün ilk yarısını oturaq şəraitdə keçirməyiniz məsləhətdir. Onsuz da qeyri-adi hansısa uğurunuz gözlənilmir. Saat 14-dən sonra isə hər şey ürəyinizcə olacaq, özünüzə güvənin.

**ƏKİZLƏR** - İkitərəfli əməkdaşlığa, yeni layihələrin müzakirəyə çıxarılmasına çalışmaq üçün çox düşərlidir. Heç kimə şübhə ilə yanaşmayın. Aktiv olun və inanın ki, aldadılmayacaqsınız.

**XƏRÇƏNG** - İlk öncə qarşılıqlı münasibətlərdə mövcud olan gərginliyi aradan qaldırmağa çalışın. İstər ailə-sevgi, istərsə də həmkarlarla davranışları mülayimləşdirin. Uzaq yola çıxmayın.

**ŞİR** - Başınızı iş-güclə o qədər qatmısınız ki, insanlarla davranışlarınız, həmçinin ailə-sevgi münasibətləriniz arxa plana keçməyə başlayıb. Daha mənalı yaşamaq üçün bu qüsurları dəf edin.

**QIZ** - Əsas gücünüzü fəaliyyətə yönəldin. Perspektivli pul sövdələşmələrini qətiyyən təxirə salmayın. Nahardan sonra isə istənilən işgüzar sövdələşmədə ehtiyatlı olmağa çalışın.

**TƏRƏZİ** - Yaxşı olar ki, bu təqvimdə yalnız adi işlərlə məşğul olasınız. Çünki istənilən risk və yeniliyə cəhd uğursuzluqla nəticələnə bilər. Günorta saatlarında müəyyən qədər gəlir gözlənilir.

**ƏQRƏB** - Əgər sağlıq durumunuz imkan verirsə, fəallığı artırmağa dəyər. Təcrübəli insanların məsləhətlərindən yararlanın. İdeyalar verməyi daha çox öz üzərinizə götürün.

**OXATAN** - Orqanizminizdə baş qaldıran nasazlıq bəzi planlarınızın icrasına əngəl yarada bilər. Amma reallığı nəzərə alsanız, saat 15-18 aralığında uğurlara yetişə bilərsiniz.

**OĞLAQ** - Günün ilk yarısında mənəvi səhvlər törətməkdən çəkinsəniz, qalan müddətdə hər hansı problemlə üzləşməyəcəksiniz. Saat 15-17 aralığı çox uğurlu hadisələr gözlənilir.

**SUTÖKƏN** - Humanist bürc olsanız da, Göy qübbəsi bu gün hisslərinizi idarə etməkdə zəif olacağınızı bəyan edir. Bu yerdə mütləq təmkin göstərməli, bədxahlara əhəmiyyət verməməlisiniz.

**BALIQLAR** - Havalar münasib olduğundan astroloji göstəricilər nəzərdə tutduğunuz təqdirdə uzaq yola çıxmağı tövsiyə edir. Amma gərək sağlıq durumunuzu da nəzarətdə saxlayasınız. Təmiz havada çox olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Yaşını azaldıb məktəbə qəbul oldu, həbs edildi



ABŞ-ın Pensilvaniya ştatındakı federal məhkəmə Ukrayna vətəndaşını 2 aylıq müddətə həbs edib. Buna səbəb onun dörd il ərzində özünü məktəb şagirdi kimi təqdim etməsi olub. Əslində onu fevralda həbs ediblər, amma məhkəmə indi keçirilib. Samarinin yalanının necə üzə çıxması barədə heç nə deyilmir. O, beş cinayət əməlində ittiham olunur. 24 yaşlı Artur Samarin sənədlərində və sürücülük vəsiqəsində doğum tarixini dəyişdirib. 2012-ci ildə turist vizasının müddəti bitəndə kişi Harrisberq şəhərindəki Eşer Potts adına orta məktəbə daxil olub. Özünü gerçək yaşından 6 yaş kiçik təqdim edən ukraynalı məktəbə daxil olub və məktəbin həyatında aktiv iştirak etməyə başlayıb. O, eyni zamanda 15 yaşlı bir qızla da münasibət qurub.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 4.750